


XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...

# BİNƏQƏDİ





NOVRUZ BAYRAMINIZ MÜBARƏK!


№05 (142) | 18 mart 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiyməti: 40 qəpik


## Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkkülündə müstəsna əhəmiyyətə malikdir. Əcdadlarımızın müqəddəs yadigarı kimi bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapmışdır. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləmişlər.

Yaz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə gələcəyə inamımızı zəifləməyə qoymamışdır. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq iyirmi beşinci baharını yaşayan Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Sivilizasiyaların qovuşuğundakı multikultural mühitli ölkəmizin müxtəlif mədəniyyətlərə mənsub insanlarını daim ünsiyyətə çağıraraq xoş münasibətlər bərqərar etmiş və dostluq, qardaşlıq əlaqələrini daha da gücləndirmiş Novruz bayramında tolerantlığın həqiqi təntənəsi vardır.

Bahar bayramının ali bəşəri duyğuların daşıyıcısı olaraq YUNESKO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur. Mən azərbaycançılıq məfkurəsi işığında sıx birləşməklə bayramı ölkəmizin hüdudlarından kənarda bizimlə bərabər qarşılayan soydaşlarımıza firavanlıq, əmin-amanlıq və ruh yüksəkliyi arzu edirəm.

Həmrəyliyimizin rəmzi bu bayram qoy hər evə xoş ovqat gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 mart 2016-cı il.*


YAP BİNƏQƏDİ SƏH. 2



İyirmi üç il fəaliyyətdə...

SOSİAL SƏH. 3



Sakinlərlə səyyar görüş keçirilib

GƏNCLİK SƏH. 6



İncə və lirik səsin sehrində...


# Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilib



Martın 15-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Ankarada Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib ƏRDOĞAN iclasda çıxış edərək dedi:

– Əziz qardaşım, cənab Prezident Əliyev.

Nümayəndə heyətinin dəyərli üzvləri.

Sizi ən səmimi hisslərimlə, məhəbbətlə, hörmətlə salamlayıram. Sizi ikinci vətəniniz olan Türkiyədə qonaq qəbul etməkdən böyük məmnuniyyət hissi keçirdiyimi xüsusilə vurğulamaq istəyirəm. Millətimizin və ölkəmizin bu çətin günündə – Ankaranın mərkəzində, Kızılayda tamamilə mülki əhaliyə qarşı həqiqətən çox ciddi terror aktı – terrorçu-intiharçının törətdiyi hücumla bağlı göstərdiyiniz həmrəyliyə görə öz adımdan və millətimiz adından təşəkkür edirəm.

Builki iclasımızın Azərbaycanın müstəqilliyinin bərpasının 25-ci ilində keçirilməsi xüsusi bir məna daşıyır. Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olaraq, ötən 25 ildə keçdiyiniz inkişaf yolu və əldə etdiyiniz müvəffəqiyyətlərlə bağlı biz də ən azı sizin qədər qurur duyuruq. Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasına dəyərli qardaşım, hörmətli Əliyev ilə birlikdə sədrlik etməkdən böyük məmnuniyyət duyuram.

Türkiyə bütün sahələrdə Azərbaycanın ən yaxın strateji müttəfiqidir. Şükürlər olsun ki, ikitərəfli əlaqələrimiz bir çox ölkənin qibtə etdiyi və nümunə götürdüyü səviyyədə davam edir. Bu iclasımız, inşallah, mövcud əməkdaşlığımızı daha da inkişaf etdirəcək və möhkəmləndirəcək. İclasımızın əsas mövzuları enerji, nəqliyyat, iqtisadiyyat və hərbi təhlükəsizlik, yəni, müdafiə sahəsində əməkdaşlıq olaraq müəyyənləşdirilib. Dünyadakı hazırkı iqtisadi və siyasi vəziyyəti nəzərə aldıqda mən bu məsələlərin çox dəqiq seçildiyini vurğulamaq istəyirəm.

Əziz qardaşım, son illərdə Azərbaycan bütün sahələrdə sürətlə inkişaf edir. Ötən il ilk Avropa Oyunlarının açılışını möhtəşəm təşkil etdiniz. Açılışda ən az sizin qədər biz də qürur duyduq, iftixar hissi keçirdik. İnşallah, bu il də BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunda iştirak etmək üçün Bakıya səfər edəcəyik. Həmçinin Sizin 2016-cı ili "Multikulturalizm ili" elan etdiyinizi bilirəm. Məlumdur ki, diskriminasiya, ksenofobiya və İslamafobiya kimi irqçi meyillər dünyada yenidən fəallaşıb. Bu baxımdan ev sahibliyi edəcəyiniz BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun çox mühüm əhəmiyyət daşıdığını düşünürəm.

Biz vətəndaşlarımızın təhlükəsizliyinə qəsd edən, ölkəmizi təhdid edən bütün terror təşkilatlarına qarşı mübarizəmizi davam etdirəcəyik. Bu məsələdə Azərbaycanın bizi dəstəklədiyini bilirik. Bu gün buraya gələrək bunu sübut etdiniz. Həm də əsl dostluğun və qardaşlığın nə demək olduğunu bizə göstərdiniz. Millətimiz bunu heç vaxt unutmayacaq. Bu düşüncələrlə Sizi və nümayəndə heyətinizin üzvlərini bir daha salamlayıram və sözü Prezident, əziz qardaşım İlham Əliyevə verirəm.

Azərbaycan Prezidenti İlham ƏLİYEV çıxış edərək dedi:

– Hörmətli cənab Prezident, əziz qardaşım.

Mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

İlk növbədə iki gün əvvəl Ankarada törədilmiş dəhşətli terror aktı nəticəsində həlak olanlara Allahdan rəhmət diləmək istəyirəm. Həlak olanların yaxınlarına Allahdan səbir diləyirəm. Bu dəhşətli terror aktı bizi də sarsıtdı. Azərbaycan xalqı həmişə olduğu kimi, bu gün də türk xalqı ilə birlikdədir. Biz həmrəyik, dostuq, qardaşıq. Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığı dayanır. Yaxşı günlərdə də, ağır günlərdə də biz hər zaman bir-birimizin yanındayıq.

Siz də qeyd etdiyiniz kimi, bu il Azərbaycan müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd edəcək. Bizim müstəqilliyimizi tanıyan ilk ölkə Türkiyə olmuşdur. O gündən bu günə qədər bizim əməkdaşlığımız dərinləşir, inkişaf edir və bu gün strateji tərəfdaşlıq səviyyəsinə qalxmışdır.

Biz bir çox sahələr üzrə ciddi fəaliyyət göstəririk. Siz qeyd etdiyiniz kimi, təhlükəsizlik, terrora qarşı mübarizə sahələrində, enerji, nəqliyyat, hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığımızın çox gözəl tarixi var və əminəm ki, bu əməkdaşlıq getdikcə daha da dərinləşəcək.

Türkiyənin son illər ərzində sürətli inkişafı da bizi sevindirir. Türkiyə bu gün dünya miqyasında güclü ölkələr sırasındadır.

Keçən ilin noyabr ayında Sizin rəhbərliyinizlə G20 toplantısı keçirilmişdir. Bu da ölkənizin növbəti böyük zəfəri idi. Biz fəxr edirik ki, Azərbaycan bu toplantıya dəvət olunmuşdur. Siz bir daha öz qardaşlığınızı göstərdiniz. Çünki Siz bir ölkəni dəvət edə bilərdiniz, o ölkə də Azərbaycan oldu. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir.

İclasda ölkələrimiz arasında həyata keçirilən enerji, nəqliyyat layihələrinin icrası, qarşılıqlı investisiya, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı. Sənədlərin imzalanması mərasimindən sonra Prezident İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

# "Çoxqütblü dünyaya doğru" mövzusunda Qlobal Bakı Forumu




Martın 10-da Azərbaycanın paytaxtında "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumunun rəsmi açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları açılış mərasimində iştirak ediblər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilib. Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı Forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edib.

Forumda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu beynəlxalq tədbirin yaxşı ənənəyə çevrildiyini, dünyada sülh və təhlükəsizliyin möhkəmlənməsinə öz töhfəsinin verdiyini diqqətə çatdırıb. Əvvəlki forumdan ötən dövr ərzində regionda baş verən proseslərə diqqət çəkən dövlətimizin başçısı bildirib ki, bu gün dünyada vəziyyət dəyişmişdir, daha da sakit və təhlükəsiz olması əvəzinə, əksinə, xeyli təhlükəli olmuşdur.

Azərbaycan Prezidenti dünyada terrorçular tərəfindən maddi-mənəvi abidələrin dağıdılması faktına da toxunub, respublikamızın işğal edilmiş ərazilərində hər şeyin darmadağın edildiyini diqqətə çatdırıb. Bildirib ki, ATƏT oraya iki dəfə faktaraşdırıcı missiya göndərmişdir və hər iki halda onların hesabatları real vəziyyəti əks etdirib.

Prezident İlham Əliyev müxtəlif etnik köklərə, dinlərə malik insanların əsrlər boyu Azərbaycanda sülh, əmin-amanlıq şəraitində yaşadığını, multikulturalizm və dini dözümlülüyün ölkəmizdə dövlət siyasəti olduğunu, 2016-cı ilin "Multikulturalizm ili" elan edildiyini vurğulayıb.

"Biz Azərbaycanda multikulturalizm dəyərlərini təşviq edən çoxsaylı beynəlxalq tədbirlər keçirmişik. Dünya dini liderlərinin zirvə görüşü, bir neçə dəfə Mədəniyyətlərarası Dialoq Forumu və Beynəlxalq Humanitar Forum təşkil etmişik. Təqribən bir aydan sonra biz BMT-nin təşkilatçılığı ilə Azərbaycanda Sivilizasiyalar Alyansının 7-ci toplantısını keçirəcəyik. Azərbaycanın bu sahədəki təcrübəsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir. Bu, multikulturalizmin yaşadığını, onun gələcəyinin olmasını sübut edir, sadəcə siyasətçilər, ictimai rəyə təsir etmək iqtidarında olanlar, o cümlədən media nümayəndələri daha məsuliyyətli olmalıdırlar. Hesab edirəm ki, bu məsələdə medianın rolu daha müsbət olmalıdır. Təəssüf ki, bir çox hallarda biz xəbərlərdə qarşıdurma, qaçqın böhranı və bunlarla bağlı kadrlar görürük".

# İyirmi üç il fəaliyyətdə...

## Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının yaradılmasının 23-cü ildönümünə və qurumun ötən ilin yekunlarına həsr olunmuş yığıncaq keçirilib

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, millət vəkili Kamaləddin Qafarov, YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, RİH başçısı Aparatının şöbə müdirləri, ərazi ilk partiya təşkilatlarının sədrləri, partiya üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Yığıncaq iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binası qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin ruhuna öz ehtiramlarını bildiriblər. Sonra Yeni Azərbaycan Partiyası və partiyanın Binəqədi rayon təşkilatının ötən dövr ərzində fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Tədbiri geniş hesabat məruzəsi ilə açan Ramiz Göyüşov YAP-ın yaradılmasını Azərbaycan dövləti və xalqı üçün əlamətdar hadisə adlandırıb. Bu tarixi günün hər il yüksək əhval-ruhiyyə ilə qeyd edildiyini söyləyən R.Göyüşov sədrlik etdiyi YAP Binəqədi rayon təşkilatının fəaliyyəti, 2015-ci ildə həyata keçirdiyi çoxsaylı layihələr barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. O, partiyanın rayon təşkilatının üzvlərinin bundan sonrakı fəaliyyəti dövründə də dahi şəxsiyyət Heydər Əliyev ideyalarına sədaqətli olacağını və ölkəmizin çi-



çəklənməsi uğrunda daim çalışacaqlarını bildirib.

Yığıncaqda nitq söyləyən Eldar İbrahimov YAP-ın yaradılması tarixindən danışaraq, onun ölkəmizin keşməkeşli, ağır sınaqlara məruz qaldığı vaxtlarda təsis edildiyini vurğulayıb. Xalqın böyük inam və etimadı əsasında yaradılan YAP-ın öz siyasi fəaliyyətini dahi şəxsiyyət Heydər Əliyevin uğurlu siyasi kursu ilə daha da inkişaf etdirdiyini və sıralarını genişləndirdiyini bildirib. E.İbrahimov ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin inkişafı üçün misilsiz xidmətlər göstərdiyini və bu siyasətin bu gün də dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.



Kamaləddin Qafarov ölkə Prezidenti, YAP-ın sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu siyasətdən danışıb. Bildirib ki, daim Azərbaycan xalqının maraq və mənafeyini qoruyan, xalqımızın rifahı üçün var gücü ilə çalışan Prezident İlham Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan sürətlə inkişaf edir.

Yığıncaqda geniş nitq söyləyən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov diqqəti Azərbaycanda həyata keçirilən uğurlu islahatlara və ölkəmizdə mövcud olan inkişaf göstəricilərinə yönəldib. İcra başçısı bütün bu inkişafın ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi strategiyanın sayəsində mümkün olduğunu diqqətə çatdırıb. Binəqədi rayonunda həyata keçirilən islahatlardan danışan RİH başçısı Azərbaycanın hər bir yerində olduğu kimi, Binəqədi rayonunda da ölkə Prezidentinin rəhbərliyi ilə mühüm islahatların həyata keçirildiyini vurğulayıb.

Biləcəri qəsəbəsi Gənclər Birliyinin sədri Sahib Hacızadə respublikamızda uğurla həyata keçirilən dövlət gənclər siyasətindən, gənclərlə iş sahəsində görülən tədbirlərdən danışıb. YAP üzvləri arasında gənclərin fəallıqları ilə seçildiyini deyən S.Hacızadə bildirib ki, müasir Azərbaycanda bütün sahələr üzrə qazanılan nailiyyətlərdə gənclərin xüsusi payı var. Dövlətimizin iqtisadi-siyasi potensialını, ümumi inkişaf səviyyəsini əks etdirən əsas meyar məhz gənclərlə bağlıdır. Binəqədidə gənclərin diqqət və qayğı ilə əhatə olunduğunu deyən sədr rayonun mədəni, sosial-iqtisadi həyatında onların daim fəallıq göstərdiyini də diqqətə çatdırıb. Bildirilib ki, gənclərlə tez-tez görüşlərin keçirilməsi, onların üzləşdikləri problemlərin aradan qaldırılması rayon icra hakimiyyəti başçısının iş prinsipinin əsasını təşkil edir: “Təsadüfi deyil ki, Binəqədidə gənclərlə bağlı müxtəlif mövzularda konfrans və iclaslar mütəmadi təşkil olunur. Belə tədbirlərdə gənclərə vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsipləri aşılanır. Bunun nəticəsidir ki, Binəqədi gəncləri müasir, intellektual, vətənpərvər ruhda yetişir, dövlətimizin iqtisadi və siyasi qüdrətinin inkişafında öz səylərini əsirgəmirlər”.

Tədbirin sonunda rayon rəhbərliyi 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə xanımları təbrik edib, onlara uğurlar arzulayıb. Yeni Azərbacan Partiyasının və Binəqədi rayonunun ictimai-siyasi, mədəni həyatında fəal iştirak edən xanımlar fəxri fərman, diplom və hədiyyələrlə mükafatlandırılıb. Yığıncaqda, həmçinin, YAP-a yenicə üzv olmuş bir qrup göncə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

# Binəqədi gənclərinin növbəti görüş yeri – Bakı Atıcılıq Mərkəzi

Martın 1-də Bakı Atıcılıq Mərkəzində Binəqədi Rayon İcra Hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı və Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə gənclər arasında stend atıcılığı üzrə rayon birinciliyi keçirilib. Əsas məqsəd gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi sahəsində işlərin səmərəsini artırmaq olub. 5 komandanın tərkibində ümumilikdə 25 gənc idmanın səngər stend atı-



cılığı növü üzrə yarışıblar. Binəqədi rayon rəhbərliyi, millət vəkilləri və gənclər təşkilatlarının rəsmiləri yarışı izləyiblər. Yarışın nəticəsinə əsasən, ilk 3 yeri tutan qalib komandalar xatirə medalları və kubokla mükafatlandırılıblar.

Sonra rayon rəhbərliyi, qonaqlar və gənclər Bakı Atıcılıq Mərkəzində yaradılan şəraitlə tanış olublar. Avropada ən böyük atıcılıq komplekslərindən biri olan Bakı Atıcılıq Mərkəzinin istifadəyə verilməsi “Bakı-2015” ilk Avropa Oyunları zamanı idmanın güllə və stend atıcılığı növləri üzrə yarışların yüksək səviyyədə keçirilməsinə imkan yaradıb. Xatırladaq ki, 2015-ci il martın 9-da Bakı Atıcılıq Mərkəzinin açılış mərəsimində Prezident İlham Əliyev, Azərbaycanın birinci xanımı, ilk Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva və ailə üzvləri iştirak ediblər.

Mərkəzdə yarışların yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Funksional zonaların sahəsi 123 min kvadratmetrdən artıqdır. Mərkəzin baş planına əsasən, ərazidə inşa edilən bina və qurğuların hamısı Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verir. İdman obyektinin ərazisi genişləndirilərək 19.4 hektara çatdırılıb. Burada geniş quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb, ətraf abadlaşdırılıb. Mərkəzin güllə atıcılığı binası müasir səviyyədədir. Burada müxtəlif funksional sahələr, o cümlədən kafe, VIP gözləmə və istirahət, idarəetmə, tədris, dopinq yoxlaması, silahsaxlama, həmçinin təchizat-xidmət otaqları, 55 yerlik 2 konfrans və mətbuat zalı, tibb məntəqəsi, fitnes-zal var. Güllə atıcılığı zallarında atış nəticələrini avtomatik qeydə alan, xalları hesablayıb monitorlara və idarəetmə mərkəzinə ötürən “Sius Ascor” markalı (İsveçrə) müasir elektron sistemləri və avadanlıqları quraşdırılıb. On metrlik məsafəyə qapalı atış tirində 80 idmançının eyni vaxtda yarışmasına imkan verən atış xətti quraşdırılıb. İyirmi beş metrlik məsafəyə yarımqapalı atış tirində 50 idmançı eyni vaxtda yarışa bilər. Burada 346 oturacaq quraşdırılıb. Əlli metrlik məsafəyə yarımqapalı atış tirinin xətti isə eyni vaxtda 80 idmançıya



bacarığını sınamağa imkan verir. Üç yüz metrlik məsafəyə yarımqapalı atış tirində də idmançıların yüksək səviyyədə yarışmaları üçün hərtərəfli imkanlar yaradılıb. Burada eyni vaxtda 40 idmançı mübarizə apara bilər. Güllə atıcılığı binasında Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə uyğun olaraq qurulan zalların hər birində idmançılara, hakimlərə, məşqçilərə xidmət edən xüsusi otaqlar yaradılıb. Binanın ikinci mərtəbəsində atıcılıq zallarının nəzarət otaqları və baxış eyvanı, təlim-tədris, məşqçi, iclas otaqları və digər inzibati-texniki otaqlar var. Stend atıcılığı sahəsində idmanın dairəvi və səngər stend atıcılığı növü üzrə yarışlar və məşqlər keçirilir. Burada biri final yarışları üçün nəzərdə tutulmaqla 5 atış meydançası inşa olunub. Bu meydançalarda səngər atış hərəkətləri üçün 75 hədəftullayıcı avadanlıq quraşdırılmışdır. Dairəvi atış hərəkətli üçün inşa edilmiş 5 qüllədə isə 10 hədəftullayıcı avadanlıq var. İtaliyanın “Mattarelli” markalı hədəftullayıcıları Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verən avadanlıqlardır. Mərkəzdə idmançıların və məşqçilərin, həmçinin qonaqların qalmaları üçün mehmanxana binası da inşa olunub. Dörd mərtəbə və terrasdan ibarət binada qonaqların istirahəti üçün yüksək şərait yaradılıb. Binada, həmçinin, inzibati otaqlar da fəaliyyət göstərir.

Tədbir çərçivəsində rayonun ictimai-mədəni həyatında fəallıq göstərən gənclərlə də görüş keçirilib. Ölkəmizdə gənclərə göstərilən yüksək diqqət və qayğıdan danışan Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər si-



yasətinin hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla və böyük əzmkarlıqla davam etdirildiyini bildirib. O, rayonda gənclərlə iş sahəsindən, eləcə də rayon gənclərinin son illər qazandıqları uğurlardan danışıb: “Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərə diqqət və qayğını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirib. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir, gənclərlə iş dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Bu gün Azərbaycanda gənclərin inkişafı və gələcəkdə lider kimi yetişmələri üçün dövlət tərəfindən bütün lazımi şərait yaradılıb və bu istiqamətdə yeni islahatlar həyata keçirilməkdədir. Gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsi, sosial problemlərinin həlli, faydalı məşğulluğunun təmin olunması istiqamətində qəbul edilən sərəncam, fərman və dövlət proqramları gənclərin bütün sahələrdə fəal iştirakı üçün geniş imkanlar yaradır. Azərbaycan gəncliyi vətənpərvər ruhlu gənclikdir. Gənclərimizin milli-mənəvi dəyərlərimizə üstünlük verməsi bu dəyərləri qoruması bizi sevindirən amillərdəndir. Onlara göstərilən etimad, qayğı gənclərimizin öz üzərlərində məsuliyyətlə çalışmalarına zəmin yaradır. Ölkəmizdə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, gənclərimiz dövlət quruculuğunda, iqtisadiyyat, elm, təhsil, mədəniyyət, incəsənət və idmanın inkişafında əhəmiyyətli rol oynayırlar”.

RİH başçısı respublikamızda gənclər üçün yaradılan yüksək şəraitə, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi, eləcə də sağlamlığının müdafiəsi və möhkəmləndirilməsi istiqamətində reallaşdırılan məqsədyönlü layihələrə görə, ölkə rəhbərliyinə təşəkkürünü bildirib.

Görüşdə millət vəkilləri Kamaləddin Qafarov, Şahin İsmayılov, Bakı şəhəri üzrə Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov və Prezident yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev də çıxış ediblər. Bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan gənclər siyasəti artıq öz bəhrəsini verməkdədir. Belə müasir idman qurğularının istifadəyə verilməsi ölkəmizdə gənclərin idmana marağının artırılması və idmanın kütləviliyinin təmin edilməsi istiqamətində atılan addımların ardıcıl xarakter daşıdığını nümayiş etdirir. Bu cür layihələrin reallaşdırılması, eyni zamanda, gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişməsində mühüm rol oynayır. Vurğulanıb ki, hər bir gənc fəaliyyətində dövlətimizə, Vətənimizə sədaqətli olmalı, Azərbaycanın sabitliyi və inkişafının qarantı olan dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tərəqqisinə öz töhfəsini verməlidir.

Səmimi mühitdə keçən görüşdə çıxış edən gənclər respublikamızda aparılan uğurlu islahatlardan danışıblar və onlara göstərilən yüksək diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər. Onlar, öz növbələrində, fəaliyyətləri ilə dövlətimizin, eləcə də Binəqədi rayonunun nüfuzunu daha da yüksəltməyə söz veriblər.

Görüşdən sonra gənclər Novruzun ikinci çərşənbəsi olan “Od çərşənbəsi”ni qeyd ediblər, tonqal ətrafında milli musiqilərimizin sədaları altında şənləniblər.

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

“Binəqədi” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# Sakinlərin problemləri nəzarətdə saxlanılır



Azərbaycan Respublikasında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, ictimaiyyətin iştirakının genişləndirilməsi, yeni texnologiyaların tətbiqi əsas prinsiplərdir. Dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədi ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"na əsasən, Binəqədi rayonunda bu istiqamətdə tədbirlər həyata keçirilməkdədir. Rayon icra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov yerlərdə sakinlərlə mütəmadi səyyar görüşlər keçirir. Belə görüşlər əhalinin problemlərinin həllində mühüm rol oynamaqla yanaşı, qəbul edilən qərarlarda, görülən işlər və atılan addımlarda ictimaiyyətin iştirakına əlverişli şərait yaradır.

Binəqədi rayonunda artıq mütəmadi xarakter almış belə görüş və tədbirlər sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması baxımından səmərəli vasitələrdən biridir. Görüşlər zamanı sakinləri narahat edən problemlər onların özləri tərəfindən səsləndirilir, digər tərəfdən, vətəndaşlar yaşadıqları ərazidə öz problemlərini aidiyyəti qurumlara çatdırmaq imkanı qazanırlar.

Növbəti belə tədbirlərdən biri də martın 9-da Binəqədi Rayon İcra Hakimiyyətinin inzibati binasında keçirilib. Rayonun bütün yaşayış massivlərini əhatə edən "Açıq qapı" vətəndaş forumunda Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, rayon Ağsaqqallar Şurasının sədri Akif Rəfiyev, İctimai Şuranın sədri Aslan Mehdiyev, Rayon Ziyalılar Cəmiyyətinin sədri Asəf Zamanov, habelə rayon sakinləri iştirak ediblər.

Görüşdə rayon sakinlərini narahat edən problemlər dinlənilib və onların bir qisminin həlli üçün aidiyyəti qurumların rəhbərlərinə yerindəcə tapşırıqlar verilib, bir qisminin həlli isə nəzarətə götürülüb.

# Sakinlərlə səyyar görüş keçirilib

Martın 11-də 28 May qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binasında Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun növbəti səyyar görüşü keçirilib.

Tədbirdə icra başçısı ilə yanaşı, müavinlər, Aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq-mühafizə orqanlarının, dövlət idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri və qəsəbə sakinləri iştirak ediblər.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı görüşü açaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkədə aparılan abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər, onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını rayon rəhbərliyindən xahiş ediblər.



Tədbirdə icra başçısı ilə yanaşı, müavinlər, Aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq-mühafizə orqanlarının, dövlət idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbər- abadlıq-quruculuq, həmçinin sosial-iqtisadi sahədə əldə edilmiş nailiyyətlər barədə ətraflı məlumat verib.

Sonra sakinlər çıxış edərək qəsəbədə gedən

İcra hakimiyyəti başçısı Xaləddin İsgəndərov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə tapşırıqlar verib.

# Fevral ayında SMX-ya daxil olan müraciətlərin statistikası



2016-cı ilin fevral ayında Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidməti (SMX) tərəfindən cavablandırılan zənglərin sayı 3423, birbaşa cavablandırılan zənglərin sayı 2568, yaradılan əks-əlaqələrin sayı 901, günlük orta zəng sayı 102, tərtib edilən şikayət vərəqələrinin sayı isə 855 olub.

Şikayət xarakterli müraciətlərin 855-nin icrası təmin edilib, o cümlədən 707-si və ya 82,6%-i tam həll olunub, 49-u və ya 5,7%-i qismən həll edilib, 99-u və ya 11,6%-nə müvafiq izahat verilərək həll edilib.

Fevral ayı üzrə daxil olmuş şikayətlərin sahələr üzrə bölgüsünə gəldikdə isə müraciətlərin 539-u və ya 63%-i qaz təchizatı, 118-i və ya 13,8%-i su-kanalizasiya, 91-i və ya 10,6%-i istilik təchizatı, 55-i və ya 6,4%-i lift problemləri, 21-i və ya 2,5%-i elektrik təchizatı ilə bağlı, 4-ü və ya 0,5%-i zibil və tullantılar ilə əlaqədar, 1-i və ya 0,1%-i yaşıllaşdırma idarəsi ilə əlaqədar olub. Xidmətə ay ərzində 28 təşəkkür müraciəti də daxil olub.

# Beynəlxalq Qadınlar Günü ilə bağlı görüş





Martın 7-də Binəqədi Rayon İcra Hakimiyyətində 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə RİH başçısı Aparatının, həmçinin rayonun idarə və təşkilatlarında çalışan, icra hakimiyyətində təcrübə keçən "ASAN könüllüləri" xanımları ilə görüş keçirilib.

Görüşdə iştirak edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov bayram münasibəti ilə xanımları təbrik edib, cəmiyyətdə və ailədə xalqımızın milli-mənəvi dəyərlərinin formalaşması, inkişafı və qorunmasında qadınların müstəsna rolundan danışıb. Qeyd olunub ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi gender siyasəti nəticəsində qadınlara ictimai həyatın bütün sahələrində bərabər imkanlar yaradılıb və onlar ölkənin ictimai-siyasi, elmi-mədəni həyatında yaxından iştirak edirlər.

Sonra tədbir iştirakçılarına hədiyyələr təqdim olunub.

# Apelyasiya Şurasının fəaliyyətinə həsr olunmuş seminar-müşavirə

Martın 10-da Binəqədi Rayon İcra Hakimiyyəti yanında Apelyasiya Şurasının fəaliyyətinə həsr edilmiş ümumrayon seminar-müşavirəsi keçirilib. Tədbirdə Apelyasiya Şurasının üzvləri ilə yanaşı, hüquq-mühafizə orqanlarının rəhbərləri, yerli özünüidarəetmə orqanları, xidmət təşkilatları, Binəqədi Rayon Sahibkarlar Birliyi, rayon ərazisində fəaliyyət göstərən sahibkarlar və rayon ictimaiyyəti iştirak ediblər.





Binəqədi Rayon İcra Hakimiyyətinin Apelyasiya Şurasının sədri – RİH başçısının birinci müavini İlqar Süleymanov müşavirəni açaraq, Şuranın yaranma səbəbləri, hüquq və vəzifələri barədə çıxış edib.

Sonra Apelyasiya Şurasının Katibliyinin rəhbəri – RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov indiyədək görülən işlər, şikayətlərə dair tələblər, Şuranın iclaslarının keçirilməsi qaydası, iclas protokolları və qərarlara dair tələblər barədə tədbir iştirakçılarına məlumat verib. Apelyasiya Şurasının üzvü – RİH başçısı Aparatının Hüquq şöbəsinin müdiri Yunis Hüseynov isə İnzibati icraat üzrə şikayətlərə baxılması qaydası barədə çıxış edib.

Tədbirdə iştirak edən sahibkarlar – Bakı Tekstil Fabrikinin direktoru Səkinə Babayeva və "El kiçik" müəssisəsinin rəhbəri Tofiq Əliyev çıxış edərək sahibkarlığın inkişafına və sahibkarlara yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonra sahibkarları maraqlandıran konkret məsələlər barədə suallar Şura üzvləri tərəfindən ətraflı cavablandırıb. Sonda İlqar Süleymanov yekun nitq ilə çıxış edib.

# Azərbaycanda multikultural ənənə davam etdirilir

Martın 10-da Binəqədi rayonunda "Dövlət-din münasibətlərinin tənzimlənməsində dini icmaların rolu" mövzusunda tədbir keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhər şöbəsinin müdiri Anar Kazımov, Binəqədi RİH başçısı yanında Dini işlər üzrə komissiyanın üzvləri, eləcə də rayon ərazisində fəaliyyət göstərən dini icma rəhbərləri, imam və axundlar iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan Vüsar İsmayılov vurğulayıb ki, dünyanın bir çox ölkələrində dini zəmində terror aktları baş verir, ekstremist hərəkatlar, dini konfessiyalararası qarşıdurmalar müşahidə olunur. Azərbaycanda isə multikulturalizm həyat tərzidir. Anar Kazımov respublikamızda dini vəziyyətin sabitliyindən, dini etiqad azadlığı baxımından Azərbaycandakı vəziyyətin region ölkələrinə nümunə olduğundan bəhs edib. Sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini işlər üzrə komissiyanın fəaliyyəti barədə məlumat vermək üçün RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Rauf Həsənov mövzu ətrafında çıxış edib.

Çıxışlardan sonra tədbirdə iştirak edən dini icma nümayəndələri dövlətimizin tolerantlıq və multikultural ənənələrə, eyni zamanda vicdan azadlığına böyük önəm verildiyinə görə, dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər. Xüsusi olaraq vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa edib. Ulu öndər ölkəmizin gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçmiş və müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırıb. Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

# Beynəlxalq Mülki Müdafiə Günü ilə bağlı tədbir

Binəqədi Rayon İcra Hakimiyyəti və Fövqəladə Hallar Nazirliyi Binəqədi rayon Fövqəladə hallar və mülki müdafiə şöbəsinin təşkilatçılığı ilə 246 saylı tam orta məktəbdə 1 Mart – Beynəlxalq Mülki Müdafiə Günü münasibəti ilə tədbir keçirilib.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, rayon fövqəladə hallar komissiyasının sədri İlqar Süleymanovun, RİH başçısı Aparatının Hüquq şöbəsinin müdiri Yunis Hüseynovun, Binəqədi rayon Fövqəladə hallar və mülki müdafiə şöbəsinin rəisi İsrafil Məmmədovun, habelə şagird və müəllimlərin də iştirak etdikləri tədbirdə mülki müdafiə qrupları tərəfindən fövqəladə hallar zamanı görülən zəruri təhlükəsizlik tədbirləri şərti olaraq nümayiş etdirilib. Sonra iştirakçılar fövqəladə hallar zamanı istifadə olunan avadanlıq və geyim əşyaları ilə tanış olublar.



# Millət vəkili sakinlərlə görüşüb

9 saylı Binəqədi ikinci seçki dairəsindən Milli Məclisin üzvü seçilən deputat Kamaləddin Qafarovun Binəqədi sakinləri ilə ilk qəbulu keçirilib. Yeni Azərbaycan Partiyasının (YAP) Binəqədi rayon təşkilatının qərargahında baş tutan qəbulda xeyli sayda rayon sakini, seçici iştirak edib.



Tədbiri açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildirib ki, bu cür görüş və qəbulların mütəmadi qaydada keçirilməsi nəzərdə tutulur: “Bu gün son parlament seçkilərində səs verib deputat seçdiyiniz Kamaləddin Qafarov öz seçicilərinin fikirlərini, problemlərini, təkliflərini dinləmək istəyir”.

Sonra söz K.Qafarova verilib. Parlament seçkilərində yüksək fəallıqla iştirak etdikləri və səs verdikləri üçün binəqədililərə, adıçəkilən dairənin seçicilərinə minnətdarlığını bildirən millət vəkili onların etimadını doğruldacağına söz verib: “Siz səs verməsəydiniz, biz də deputat ola bilməzdik. Məhz sizlərin yüksək fəallığı və səsləriniz sayəsində parlamentdə təmsil olunuruq. Bəzən tez-tez belə fikirlər, iradlar da eşidirik ki, deputatları seçiləndən sonra tapmaq, onların üzünü görmək mümkün olmur. Amma mən öz fəaliyyətim dövründə bu “ənənəni” pozmaq istəyirəm. Hər zaman seçicilərimlə, mənə səs verən və səs verməyən insanlarla bir arada olmaq, onların fikirlərini dinləmək, problemlərininin həllində iştirak edəcəyəm. Yeri gəlmişkən, qeyd etmək istəyirəm ki, YAP-ın Binəqədi rayon təşkilatının binasında bizim qərargahımız var və hər həftənin birinci, üçüncü və beşinci günləri müəyyən olunmuş vaxtlarda qərargahımızın üzvləri seçiciləri, Binəqədi sakinlərini qəbul edir, onların problemlərini öyrənir və həllinə çalışırlar”.



Millət vəkili deputat seçildiyi qısa müddət ərzində ona xeyli müraciət ünvanlandığını bildirib: “Həmin müraciətlərin çoxluğu məni narahat etmir, əksinə, sevindirir ki, insanlar öz səs verdikləri insana inanır, onu ümid yeri bilirlər. İnanın ki, heç bir müraciətə laqeyd yanaşılmır, hər bir səs eşidilir. Ötən müddət ərzində səhiyyə, “Xutor” qəsəbəsində qaz problemi ilə bağlı müraciətlər olub ki, onların da öyrənilməsinə, araşdırılıb həll edilməsinə çalışmışıq. “Xutor”da yaranan qaz problemi ilə bağlı “Azəriqaz”ın rəhbərliyi ilə danışıqlar aparmışıq və onlar da bizim müraciətimizi müsbət qarşılayaraq problemin həlli istiqamətində addımlar atıblar. Bununla yanaşı, məhkəmə, hüquq-mühafizə orqanları ilə bağlı müraciətlər olub ki, onları da öyrənmişik, araşdırmışıq, prosesi sonadək izləmişik”.

K.Qafarov qeyd edib ki, ötən müddət ərzində Binəqədi rayonunda keçirilən bütün tədbirlərdə iştirak etməyə, insanlarla bir arada olmağa çalışıb: “Çünki biz bir olmalıyıq. Bu ölkə də, bu xalq da, bu rayon da bizimdir və biz birlikdə ölkəmiz, dövlətimiz, xalqımız naminə çalışmalıyıq”.

Millət vəkili çıxışında parlamentdəki fəaliyyətinə də qısaca toxunub: “Bir müddət öncə parlamentdə, üzvü olduğum Səhiyyə komitəsində tibbi avadanlıqların və dərman vasitələrinin əlavə dəyər vergisindən azad olunması təklifini səsləndirdim. Sevindirici haldır ki, təklifim dərhal müsbət qiymətləndirildi, hətta hökumət, baş nazirin müavini hörmətli Əli müəllim səviyyəsində bu təklifin nəzərə alınmasının mümkünlüyü ifadə olundu.

Görürsünüz, dünyada yaşanan qlobal böhranın ölkəmizə az da olsa təsirlərinə, bəzi problemlərə baxmayaraq, Azərbaycan dövləti və hökuməti xalq naminə bütün riskləri gözə alır, bu yöndə addımlar atır. Bu görüşə gəlməzdən öncə yenə komitəmizin iclası keçirilirdi. Orada birbirindən vacib və əhəmiyyətli 7 məsələ müzakirə olundu. Hər biri də məhz insanların maraqları ilə bağlı idi. Mən də çıxış edərək icbari tibbi sığorta məsələsini qaldırdım. Bilirsiniz ki, Azərbaycan dövləti, hökuməti bu yöndə müəyyən adımlar atır, bununla bağlı qanunumuz var. Amma bu məsələni reallaşdırmaq elə də asan məsələ deyil. Ancaq inanıram ki, icbari tibbi sığortanın tətbiqi gözlənilən effekti verəcək. İcbari sığorta, əslində, səhiyyə problemlərinin sonu deməkdir”.

K.Qafarov, eyni zamanda, Binəqədi rayonunda, seçildiyi dairə ərazisində bir sıra layihələrin həyata keçirilməsini nəzərdə tutduqlarını bildirib. “Məsələn, biz istəyirik ki, rayonumuzda səyyar səhiyyə yoxlamaları təşkil edək. Burada da məqsəd daha çox imkansız və ehtiyacı olan insanların pulsuz tibbi müayinəsini təşkil etməkdir”.

Sonra qəbula gələn vətəndaşların fikirləri dinlənilib. Rayon sakini İlhamə Quliyeva bacısının ayağında ciddi problemlər yarandığını, on il ərzində müalicəsinin effekt vermədiyini və kömək göstərilməsini dilə gətirib. K.Qafarov problemin həlli ilə bağlı mütəxəssislərlə müzakirələr aparacağını, yardım ediləcəyini deyib.

Digər Binəqədi sakini Zarina Əliyeva ikinci qrup əlil övladının müalicəsi üçün maddi yardıma ehtiyacı olduğunu bildirib. Millət vəkili bu məsələyə də imkan daxilində kömək göstəriləcəyini bildirib.

Binəqədi rayonu ərazisində yerləşən 9-cu mikrorayonun sakini isə yaşadıqları ikibloklu binada lift probleminin olduğunu və müvafiq qurumların bu məsələnin həllinə laqeyd yanaşdığını bildirib: “Liftin uğultusundan qulaq tutulur. Bir neçə dəfə liftimizdə qəza hadisəsi yaşanıb, hətta xəsarət alanlar olub. Amma lift idarəsi hər dəfə bir bəhanə ilə aradan çıxır”.

Millət vəkili köhnə binaların əksəriyyətində liftlərin təzələndiyini bildirib və əlavə edib ki, lift idarəsinin rəhbərliyi ilə əlaqə saxlanılaraq bu məsələnin də həllinə kömək etməyə çalışılacaq.

Ümumiyyətlə, qəbul zamanı işsizliklə, “Xutor” qəsəbəsində evlərin müəyyən qismin özəlləşdirilməməsi və digər məsələlərlə bağlı müraciətlər olub və bu problemlərin də aidiyyəti qurumlarla həlli istiqamətində işlər görüləcəyi bildirilib.

Millət vəkili problemlərin həllində insanların fəal olmalarının vacibliyini söyləyib: “İnsanlar öz problemlərinin həllində fəal olmalı, başqalarına arxayınlaşmamalı, kənara çəkilməməlidirlər. İşlə bağlı o qədər elanlar var ki... Özləri maraqlanıb, iş tapa bilərlər və tapmalıdırlar. Bundan başqa, məşğulluq xidmətləri var ki, onlara müraciət edilməli, qeydiyyata dayanılmalıdır. Dövlətimiz də çalışır ki, bu məsələlərdə insanlara kömək etsin, amma insanlarımız özləri də bu məsələdə fəal olmalıdırlar, seyrçi qalmamalıdırlar”.

## Əfqanıstan veteranları qayğı ilə əhatə olunub



Azərbaycan-Əfqanıstan Veteranları İctimai Birliyinin yaradılmasının 27-ci ildönümü ilə bağlı Birliyin Binəqədi rayon şöbəsində mərasim keçirilib. Bununla bağlı qəzetimizə məlumat verən rayon şöbəsinin sədr müavini Əli Babayev deyib ki, Əfqanıstan veteranları respublikamızın və rayonun ictimai-siyasi, iqtisadi, habelə mədəni-kütləvi tədbirlərində yaxından iştirak edir: “Rayonumuzda müharibə veteranlarının həyat şəraiti, problem və qayğıları diqqət mərkəzindədir. Bizə hərtərəfli qayğı və dəstək göstərilir. Fürsətdən istifadə edib veteranlar adından göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və rayon rəhbərliyinə minnətdarlığımı bildirirəm. Onu da deyim ki, rayonda keçirilən tədbirlərdə fəal iştirakımıza görə təşkilatımız Binəqədi Rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif olunub”.

Ə.Babayev söhbət əsnasında onu da bildirib ki, şöbənin üzvləri mütəmadi olaraq Əfqanıstan veteranlarının Rusiyada keçirilən tədbirlərində iştirak edirlər.

## Sahibkarlığın inkişafı ilə bağlı tədbirlər davam edir

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının “Sahibkarlığın inkişaf etdirilməsi və əhalinin məşğulluq səviyyəsinin artırılması” ilə bağlı imzaladığı sərəncamın icrası ilə əlaqədar olaraq, rayon ərazisində yerləşən müəssisələrdə görüşlər davam etdirilir. Qeyd edək ki, həmin sərəncamla rayonda qərargah yaradılıb və yerlərdə keçirilməsi nəzərdə tutulan görüşlərin qrafiki təsdiq edilib.

Rayon icra hakimiyyətindən əldə etdiyimiz məlumata görə, qrafikə uyğun olaraq, növbəti görüş fevralın 29-da 126 saylı tam orta məktəbdə keçirilib. Tədbirdə Binəqədi rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Aparatın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov iştirak ediblər. Tədbirdə sərəncamdan irəli gələn məsələlər müzakirə olunub və bu istiqamətdə görüləcək işlər müəyyən edilib. Toplantıda 126 saylı məktəbin kollektivi ilə yanaşı, 244, 283 nömrəli tam orta məktəblərin, 138, 158 saylı körpələr evi-uşaq bağçalarının və 25 saylı şəhər poliklinikasının nümayəndələri iştirak ediblər.

Daha bir görüş martın 1-də Binəqədi Rayon Əhalinin Sosial Müdafiə Mərkəzində keçirilib. Tədbirdə RİH başçısının müavini Vüsar İsmayılov, Aparatın Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Yəhya Əliyev və Mərkəzin məsul əməkdaşları iştirak ediblər. Martın 10-da isə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşov tərəfindən Binəqədi qəsəbə bələdiyyəsində tədbir keçirilib.

Martın 11-də keçirilən görüşə 3 və 102 saylı orta məktəbin, 177, 178, 193 və 215 saylı körpələr-evi uşaq bağçalarının və 10 saylı şəhər poliknikasının nümayəndələri qatılıblar. Daha bir görüş Aparatın Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşovun iştirakı ilə martın 15-də Xocəsən qəsəbəsində baş tutub. Tədbirdə qəsəbə bələdiyyəsinin kollektivi iştirak edib.

Görüşlərdə sərəncamdan irəli gələn məsələlər müzakirə edildi və müvafiq tapşırıqlar verilib.

## Yurdumuza yaz gəlir...

Təbiətin nazlı gəlini – bahar yenə də cilvələnir. Təbəssümlə boylanan günəşin ılıq nəfəsi ana torpağı qış yuxusundan oyadır. Kol dibindən boylanan bənövşə, rayihəsini yaz mehinin qanadlarında ətrafa yayan novruzgülü baharın müjdəsi kimi könül oxşayır. Oyanan, canlanan təkcə təbiət deyil, insanların da qırışığı açılıb, gözlərdə sevinc qığılcımları oynayır, üzlərdən fərəh, təbəssüm oxunur.



Novruz adətlərini özündə yaşadan kəndlərimizdə səhər tezdən qızgəlinlər bir yerə yığışaraq axar su üstünə gedirlər və orada su çərşəbəsinin rituallarını icra edirlər. Bu günümüzə qədər yaşayan inanca görə, su çərşənbəsində su və su mənbələri təmizlənir və təzələnir. İkinci çərşənbənin odla əlaqələndirilməsi də əbəs yerə deyil. O, Günəşin hərarətinin artması ilə izah olunur. Üçüncü çərşənbədə torpaq oyanır. İlaxır çərşənbədə isə küləyin köməyi ilə ağaclar tumurcuqlayır. Nəticədə bütün bunların vəhdəti ilə bütövlükdə təbiət canlanır, yenilənir.

Çərşənbələrdə, xüsusən də ilaxır çərşənbəsində hava qaralana yaxın tonqal qalanar və yaşından asılı olmayaraq, hər kəs onun üzərindən tullanar. İnsanlar od üzərindən atlanaraq bu sözləri deyərlər: “Ağırlığım, uğurluğum burda qalsın”, “Dərdim, bəlam odda yansın”. İnanca görə, odun üzərindən tullandıqdan və nəzərdə tutulan sözlər deyildikdən sonra onlar köhnə ilin dərdindən, bəlalarından, xəstəliklərindən qurtulacaq, yeni ilə paklanmış, təmizlənmiş, sağlam olaraq gedəcəklər. İlaxır çərşənbədə və bayram günü insanlar qəbir üstünə gedər, valideynlərinin və yaxınlarının məzarını ziyarət edərlər. Bu da dünyadan köçən əzizlərə hörmət, keçmişini unutmamaq mahiyyəti daşıyır.

Uzaq və yaxın keçmişimizdə olduğu kimi, bugünümüzdə də xalq gəlişini on bir ay gözlədiyi, şövqlə qarşıladığı milli bayramın – Novruzun bütün ənənələrinə sevə-sevə əməl edir. Azərbaycan dövləti də daim bu bayrama böyük önəm verir. Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1993-cü ildə Novruz bayramı milli bayram statusu alıb. 2009-cu ildə isə Novruz bayramı aşıq sənəti ilə bir yerdə YUNESKO-nun qorunan qeyri-maddi mədəni irs siyahasına daxil edilib.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, ümummilli lider Heydər Əliyev hər il bayram günü İçərişəhərə gəzməyə çıxar, insanlarla bayramlaşardı. Bu ənənəni davam etdirən, milli-mənəvi dəyərləri yaşadan ölkə başçısı İlham Əliyev də hər il bayram günü xalqa təbrik ünvanlayır, paytaxt küçələrində təşkil olunan bayram şənliklərində iştirak edir və onlarla öz sevincini paylaşır.

Ümumbəşəri mahiyyət daşıyan Novruz bayramı hər il Binəqədi rayonunda da böyük coşğu ilə qeyd edilir. Bu məqsədlə rayon ərazisində yerləşən Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında möhtəşəm bayram şənlikləri təşkil edilir, Novruz tonqalı qalanır. Novruzun simvolu olan kosa və keçəl şənliyə təşrif buyuraraq maraqlı hərəkətləri ilə insanları şənləndirir. Bayram günü məktəblilərin əl işlərindən ibarəət sərgilər təşkil edilir və incəsənət ustaları maraqlı konsert proqramı ilə çıxış edirlər. Ötən ilin Novruz şənliyinin fərqli cəhətlərindən biri də bayram şənliyinin beynəlxalq festival kimi qeyd edilməsidir. Həmin ərəfədə Bakıya qonaq gəlmiş türkdilli ölkələrin nümayəndələri Binəqədidə keçirilən Novruz şənliyinə qatılmış və özlərinin bayram adətlərini nümayiş etdirmişlər. Bütün bunlar builki Novruz şənliyinin də rayonda möhtəşəm keçiriləcəyindən xəbər verir. Artıq bunun ilkin əlamətləri görünməkdədir. Bu günə kimi yola saldığımız çərşənbələr rayonda yüksək şəkildə qeyd edilib və hətta martın 1-də keçirilən od çərşənbəsinin tonqalı fərqli bir məkanda – rayonun ərazisində yerləşən Bakı Atıcılıq Mərkəzində alovlandırılıb. Bu gün isə (martın 18-də) saat 11:00-da Binəqədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında möhtəşəm Novruz şənliyi keçiriləcək.

## Xanımlar evlərində təbrik olunub





Binəqədi Rayon İcra Hakimiyyəti rayonun ictimai həyatında fəal iştirak edən qadınları təbrik edib. 8 Mart – Beynəlxalq Qadınlar günü münasibətilə xalqımıza ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şücaət göstərərək igidlik və qəhrəmanlıq salnaməsi yazan Vətən oğulları bəxş edən analar, Milli Qəhrəman və şəhid ailələri, fiziki məhdudiyyətli xanımlar, təqaüddə olan təhsil və səhiyyə işçiləri bayram günü evlərində ziyarət olunub. Onlara Binəqədi Rayon İcra Hakimiyyətinin rəhbərliyi adından ən xoş arzular çatdırılıb və bayramları təbrik edilib.

Görüşlərdə Binəqədi Rayon İcra Hakimiyyətinin və YAP rayon təşkilatının əməkdaşları, Binəqədi RİH-də təcrübə keçən “ASAN könüllüləri”, 158 saylı körpələr-evi uşaq bağçasının balaca fidanları da iştirak ediblər.

# Təsərrüfat işləri ilə bağlı toplantı keçirilib

Martın 3-də Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin (MKTB) inzibati binasında qarşıya qoyulmuş vəzifələrin icrası, daxili nizam-intizam qaydalarının təminat səviyyəsi və perspektivdə duran təsərrüfat işləri ilə bağlı toplantı keçirilib. Tədbirdə MKTB-nin məsul işçiləri və əməkdaşları, bütün struktur bölmələrinin və MKİS-lərin rəhbərləri iştirak ediblər.



Toplantını giriş sözü ilə açan Birliyin rəisi Azər Məmmədov "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə aparılan tikinti-abadlıq və təmizlik işlərinin vəziyyəti barədə ətraflı məlumat verib. Çıxışında daxili nizam-intizam qaydalarına toxunan A.Məmmədov fəaliyyətlərində nöqsanlara yol vermiş ayrı-ayrı vəzifəli şəxslərə xəbərdarlıq edib, bildirib ki, müəssisənin işində vacib şərtlərdən biri də daxili nizam-intizamın gözlənilməsi ilə bağlıdır: "Birlikdə nizam-intizama ciddi əməl olunmalıdır. Belə olmazsa, biz öz işimizi günün tələbləri səviyyəsində qura bilmərik. Məsul şəxslər işçilər arasında münasibətlərə xüsusi diqqət yetirməlidirlər. İmkan verməməliyik ki, müəssisədaxili intizam qaydaları pozulsun. Məhz belə olduğu təqdirdə, uğurlu nəticələr əldə edə bilərik". MKTB-də və ona tabe olan müəssisələrdə işçi qüvvəsindən səmərəli istifadəyə ehtiyac olduğunu söyləyən rəis yerlərdə əmək intizamına diqqətin artırılmasının vacibliyini vurğulayıb. Xatırladıb ki, təşkilatın daxili fəaliyyət qaydaları Azərbaycan Respublikasının Konstitusiyasında, MKTB-nin Nizamnaməsində, Əmək Məcəlləsində, kollektiv əmək müqaviləsində nəzərdə tutulan əmək hüququ normalarına uyğun olaraq tərtib edilib və əsas normativ akt hesab olunur: "Mövcud qaydalar işçilərin işə qəbul olunma, işdən azad olunma, əmək müqaviləsindəki tərəflərin hüquqi vəziyyəti, iş rejimi, istirahət vaxtı, təltif və cəza tədbirlərini müəyyən edir. Hər bir idarə rəhbəri bu qaydalara əməl etməli və rəhbərlik etdiyi qurumda nizam-intizam qaydalarını gözləməlidir".

MKTB rəisi bildirib ki, xidmət, icra və əmək intizamının pozulması hallarına yol verən MKTB əməkdaşları barəsində ən qəti tədbirlər görülür və buna nəzarət olunur: "Bizim səylərimiz ilk növbədə "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, Binəqədi Rayon İcra Hakimiyyətinin və Mənzil-Kommunal Təsərrüfatı Departamentinin apardığı hərtərəfli islahatların yeni müstəvidə və müasir məzmunda davam etdirilməsinə yönəlib. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətli icrası, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin artırılması, mövcud nöqsan və çatışmazlıqların, xidmət, icra və əmək intizamının pozuntusu hallarının dərhal aradan qaldırılması başlıca məqsədimizdir. Xidmət sahəsində əldə edilmiş uğurlarla yanaşı, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması, xidmət, icra və əmək intizamının pozulması hallarına, işçiyə yaraşmayan hərəkətlərə yol verən əməkdaşlara münasibətdə müvafiq tədbirlərin görülməsi təmin olunur və bundan sonra da bütün mənfi təzahürlərə qarşı barışmaz mübarizə xəttini qətiyyətlə davam etdirməklə xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi məsələlərində daha qətiyyətli addımlar atılacaqdır".

A.Məmmədov ayrı-ayrı strukturların fəaliyyətini təhlil edərək təmizlik sahəsindəki mövcud çatışmazlıqları diqqətə çatdırıb və aradan qaldırılması üçün zəruri işlərin aparıldığını deyib. O, yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə mülkiyyət formasından asılı olmayaraq bütün obyektlərdə, yaşayış binalarında, onların ərazilərində planlı şəkildə yanğın-texniki müayinələr aparılan zaman aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün mütəmadi və məqsədyönlü tədbirlərin həyata keçirilməsinin vacibliyini söyləyib: "Qeyd olunanları nəzərə alaraq, payız-qış mövsümündə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə aidiyyəti təşkilatların nümayəndələrinin birgə iştirakı ilə ərazidə yerləşən hündürmərtəbəli və çoxmənzilli yaşayış binalarında davamlı olaraq texniki müayinələr keçirilir. Müayinələr zamanı müəyyən edilib ki, bir çox yaşayış binalarında sakinlər tərəfindən pilləkan qəfəslərində hərəkəti məhdudlaşdıran əşyaların yığılmasına, binaların perimetri boyunca yanğınsöndürmə avtomobillərinin sərbəst hərəkətinə maneələrə, eləcə də məhəllədaxili keçidlərin bağlanmasına yol verilib ki, bunlar dərhal aradan qaldırılmalıdır".

"2015-2016-cı illərin payız-qış mövsümündə rayonun küçə, səki, məhəllədaxili ərazi və yollarının qardan vaxtında təmizlənməsi, ictimai nəqliyyatın hərəkətinin nizamlanması, qaz, su, istilik və elektrik enerjisi ilə təchiz edilməsi tədbirləri haqqında" icra hakimiyyəti başçısının məlum sərəncamından irəli gələn vəzifələrin icrası barədə ətraflı danışan MKTB rəisi xatırladıb ki, ötən müddət ərzində sərəncamdan irəli gələn tədbirlərin keyfiyyətlə həyata keçirilməsi istiqamətində maksimum səy göstərilib.

MKTB rəisi iqtisadi qənaətlilik prinsiplərini həyata keçirmək üçün yerli resurslardan maksimum istifadə olunmaqla təsərrüfatın idarə edilməsi qaydalarının işlənib hazırlanmasının vacibliyini diqqətə çatdırıb.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 22 yanvar 2015 ci il tarixli 7 saylı "Binəqədi rayonu ərazisində baş vermiş hadisələr barədə məlumatların rayon icra hakimiyyəti başçısına çatdırılması Qaydaları" barədə əmrinin tələblərinin icrası vəziyyəti də ətraflı təhlil edilib və bu sahədə operativliyin lazımi səviyyədə olduğu bildirilib. Cari təsərrüfat tədbirləri hesab olunan təmizlik işlərinin vəziyyəti, yaşayış binalarının girişlərində texniki-profilaktik normaların, sakinlərə lift xidməti, mənzillərdə tüstü-bacaların təmizlənməsi, məişət tullantılarının toplanması və daşınması xidmətlərinin vəziyyəti, kommunal xidmət haqlarının yığılması, eləcə də küçələrin, parkların və həyətlərin işıqlandırılması məsələləri ətraflı müzakirə edilib, bununla bağlı Mənzil Fondunun istismarı və marketinq şöbəsinin müdirinin məlumatları dinlənilib.

Toplantıda qanunsuz küçə ticarəti və reklamları ilə mübarizə tədbirləri və digər həllivacib məsələlərlə bağlı da müzakirələr aparılıb.

# Rayonda abadlıq işləri səngimir

"2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə aparılan abadlıq-quruculuq işləri səngimir. Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin (MKTB) baş mühəndisi Vəli Əliyevin əməkdaşımıza verdiyi məlumata görə, ötən həftə Dövlət Proqramının icrası ilə əlaqədar 9-cu mikrorayon ərazisində fəaliyyət göstərən 79 saylı Mənzil İstismar Sahəsinin əməkdaşları "Heydər " məscidinə gedən yolda küçələrin işıqlandırma sisteminə texniki qulluq göstərmişlər. Bununla yanaşı, xidməti ərazidə mövcud ifrastrukturlarda əsaslı şəkildə yenidənqurma işləri aparılmış, texniki və profilaktik qulluq göstərilmişdir.



Baş mühəndisin sözlərinə görə, ötən müddət ərzində birliyin inzibati ərazisində rayon rəhbərliyinin təşəbbüsü ilə başlanmış " Birgə Yaradaq" layihəsi çərçivəsində də işlər davam etdirilmişdir. Bu məqsədlə Azadlıq prospekti 187,189 ünvanında məişət tullantıları konteynerlərinə texniki baxış keçirilmiş və nəticəsindən asılı olaraq, ərazidə qoyulmuş konteynerlərə xidmət göstərilmişdir. Eyni zamanda, layihə çərçivəsində 80 saylı MKİS-nin bağbanları tərəfindən 7-ci mikrorayondakı A.Kunanbayev 9/25 ünvanında yaşıllıqlara qulluq göstərilmiş və ərazidə təmizlik işləri aparılmışdır. Bununla yanaşı, rayon rəhbərliyinin tapşırığı ilə birliyin əməkdaşları Azadlıq prospekti 200/36 saylı binanın ətrafında profilaktik təmizlik işləri həyata keçirmiş və ərazi məişət tullantılarından, yabanı alaq otlarından təmizlənmişdir.

V.Əliyev vurğulamışdır ki, Binəqədi Rayon İcra Hakimiyyətinin Sakinlərin Müraciət Xidmətinə (1646) daxil olan vətəndaş şikayəti əsasında MKTB-nin əməkdaşları bu günlərdə 72 saylı MKİS-in xidməti ərazisi olan N.Nərimanov 85 ünvanında tikilmiş yaşayış binasının damına texniki baxış keçirmiş və burada təxirəsalınmaz tədbirlərin görülməsi qənaətinə gəlinmişdir: "Qeyd olunan binanın damında texniki çatışmazlıqlar nəticəsində atmosfer sularının daxilə sızması halları müşahidə edilmişdir. MKTB rəhbərliyinin xüsusi göstərişi əsasında damda təmir-bərpa işləri həyata keçirilmiş, operativ tədbirlər nəticəsində mənzilin və lift maşın kabinəsinin dam örtüyü yenilənmişdir".

Qeyd edək ki, birlik payız-qış mövsümünə hazırlıqla bağlı bu gün də gücləndirilmiş iş rejimində fəlaiyyət göstərir.

# Veteran polis işçisi minnətdarlıq edir...

Böyük Vətən Müharibəsi, Əmək, Silahlı Qüvvələri və Hüquq Mühafizə Orqanları Veteranları Təşkilatının Binəqədi rayon şöbəsinin rəhbəri, polkovnik Telman Hətəmov 1946-cı ildə Ağdam rayonunda anadan olub. Uzun müddət Rusiya Federasiyasının daxili qoşunlarının hərbi hissəsində zabit kimi xidmət edən Telman müəllim Qarabağda gedən döyüşlərdə iştirak etmək üçün 1990-cı ildə Vətənə dönüb. O, həmin ərəfədə 300 nəfərdən ibarət batalyonların birinə komandir təyin olunub, əhalinin təhlükəsizliyinin təmin olunması üçün əməliyyat planı hazırlayıb və müxtəlif ərazilərdə postlar yaradıb. Tezliklə rəhbərlik onu alay komandiri təyin edib. Komandir olduğu müddətdə bir sıra əməliyyatlarda iştirak edib. 2001-ci ilin sentyabrında öz xahişi ilə işdən azad olunub.



T.Hətəmov bu yaxınlarda səhhəti ilə bağlı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Tibb İdarəsinin general-leytenant A.N. Heydərov adına Respublika hospitalında müalicə olunub. Səhiyyə müəssisəsində yaradılan yüksək səviyyəli şəraitdən, xəstələrə göstərilən diqqət və qayğıdan ağızdolusu danışan veteran polis əməkdaşı son illərdə Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində səhiyyə sahəsində böyük nailiyyətlərin əldə olunduğunu vurğulayıb: "Xüsusilə son illərdə ölkə rəhbərliyinin qayğısı nəticəsində səhiyyə sahəsində uğurlu nəticələr əldə olunub. Daxili işlər naziri, general-polkovnik Ramil Usubovun diqqət və qayğısı sayəsində hüquq-mühafizə orqanları sıralarında çalışan şəxsi heyətin sağlamlığı, onların müalicəsi hər zaman nəzarətdədir. Müalicə olunduğum Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Tibb İdarəsinin general-leytenant A.N. Heydərov adına Respublika hospitalının işçi heyəti vəzifələrinin öhdəsindən məharətlə gəlirlər. Onların xəsətələrə xoş, mehriban münasibəti özü bir müalicə vasitəsidir. Sözsüz ki, hospitalda yaradılan şərait, ən müasir tibb avadanlıqları Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin daxili işlər orqanlarında işləyənlərə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir. Fürsətdən istifadə edib mənə göstərdiyi qayğıya görə, hospitalın Kardiologiya şöbəsinin müdiri, tibb elmləri doktoru İlqar Əlizadəyə, müalicə həkimi Gülnarə Əliyevaya və orada işləyən bütün tibb heyətinə minnətdarlığımı bildirirəm. İnanıram ki, onlar bundan sonra da öz işlərinin öhdəsindən peşəkarcasına gələcəklər".

# Gənclər mərhələ yarışında iştirak ediblər

Binəqədi rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatı Gənclər Birliyi, "Gənclərin Həmrəyliyinə Dəstək" İctimai Birliyi və Gənclərin İntellektual İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə gənclər arasında "Xəmsə" Milli İntellektual Oyunu üzrə VIII Azərbaycan Çempionatının Binəqədi rayon mərhələsi keçirilib.



Yarışda tərkibi 5 oyunçudan ibarət olmaqla ümumilikdə 8 komanda ("Kür-Araz", "Cəngi", "Atəşgah", "Odlar Yurdu", "Qafqaz", "Qala", "Zirvə", "Alov") iştirak edib. Yekun nəticəyə görə, "Odlar Yurdu" komandası I olub. "Qafqaz" komandası II, "Qala" komandası isə III yerlə kifayətlənib. Qalib komandalar diplom, medal və kubokla təltif olunublar.

# Məktəblilərə milli mənlik ruhu aşılanır

298 saylı tam orta məktəbdə "Ədəbiyyatımız milli mənliyimizdir" adlı ədəbi-bədii kompozisiya keçirilib. Tədbirdə Bakı şəhəri üzrə Təhsil İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Şahanə Bağırova, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə iştirak ediblər.



Çıxış edənlər Azərbaycan ədəbiyyatı tarixi barəsində ətraflı danışıblar. Bildirilib ki, milli-mənəvi dəyərlər, həyat tərzi, adət-ənənələr hər bir millətin tarixi inkişaf mərhələsində meydana gəlib. Hər kəs mənsub olduğu milli gerçəkliyin ayrı-ayrı əlamətlərini öz şüurunda əks etdirməklə yanaşı, özünün milli mənsubiyyətini, tarixi keçmişi və soykökü ilə fəxr edir. İnsanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Qeyd edilib ki, xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli-mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.



Milli mənliyimizin ədəbiyyatımızda daha çox özünü büruzə verdiyini deyən natiqlər ölkəmizdə dövlət ideologiyasının əsasında milli-mənəvi dəyərlər, dövlətçilik ideyalarının durduğunu diqqətə çatdırıblar. Tədbirin bədii hissəsində şagirdlərin ifasında şeirlər səsləndirilib, səhnəciklər nümayiş etdirilib, mahnılar ifa olunub.

# Qadınlar – həyatımızın mənası, gözəllik və sədaqət nümunəsi...

**Cəmiyyətin inkişafının bütün sahələrində qadınların rolu kifayət qədərdir. Azərbaycanda zərif cinsin nümayəndələri kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak edirlər. Ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində respublikamıza rəhbərliyi dövründə Azərbaycan qadınlarının problemlərinin həllinə, onların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında rolunun artırılması məsələlərinə böyük diqqət ayırıb. Ümummilli liderin qurucusu olduğu müasir Azərbaycanın inkişafında qadınların rolu əhəmiyyətli dərəcədə artıb. Bu məqsədlə dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilib və bu gün də ardıcıl şəkildə davam etdirilir. Ölkəmizdə insan hüquq və azadlıqlarının, onların tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi, qadınların müxtəlif aparıcı vəzifələrə irəli çəkilməsi Azərbaycan dövlətinin prioritet istiqamətlərindəndir.**

**Binəqədi rayonunda yaşayan və işləyən xanımlarımız da ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında, müstəqil dövlətimizin daha da möhkəmləndirilməsində, elmin, mədəniyyətin, ədəbiyyatın inkişaf etdirilməsində öz xidmətlərini əsirgəmirlər. Rayonda müxtəlif sahələrdə fəaliyyət göstərən xanımlarımız respublikamızda qadınların rolu, onlara göstərilən münasibət və s. barədə fikirlərini bizimlə bölüşüblər.**





**Almaz Ələkbərova, Binəqədi Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 saylı kitabxana filialının direktoru, YAP Binəqədi rayon təşkilatının ərazi ilk partiya təşkilatının Qadınlar Şurasının sədri:** "Cəmiyyətdə və ailədə xalqımızın milli-mənəvi dəyərlərinin formalaşması, inkişafı və qorunmasında qadınların müstəsna rolu var. Ümummilli lider Heydər Əliyevin qadın və cəmiyyət siyasətində qadına diqqət və qayğı mühüm bir istiqamət kimi göstərilib. Həmin siyasət bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Milli-mənəvi dəyərlərimizin, adət və ənənələrimizin keşiyində şərəflə dayanan qadınlarımız həmişə Azərbaycanın müstəqilliyi, güclü və qüdrətli dövlətə çevrilməsi yolunda böyük işlər görüblər.

Azərbaycan xalqının milli-mədəni irsinin öyrənilməsində, xalqımızın dərin köklərə malik musiqisinin, ədəbiyyatının və mədəniyyətinin təbliğində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini qadınlarımız örnək kimi qəbul edirlər. Öz fəaliyyəti ilə əsl Azərbaycan qadın obrazını yaradan YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın gördüyü işlər beynəlxalq miqyasda da yüksək qiymətləndirilir".

**İradə Əhmədova, 298 saylı uşaq bağçasının müdiri:** "Tariximizə bir çox parlaq səhifələr yazmış Azərbaycan qadınının milli-mənəvi dəyərlər sistemimizin təşəkkülündə və yaşadılmasında müstəsna rolu var. Xanımlarımızın gözəlliyi, sədaqəti, mərdliyi, ana məhəbbətinin ülviliyi xalq yaradıcılığımızın nümunələrində, görkəmli sənətkarlarımızın əsərlərində dönə-dönə vəsf olunub. Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna hər zaman böyük ehtiramla yanaşıb. Cəmiyyətin içində kiçik bir dövlət sayılan ailədə əsas iş məhz ananın üzərinə düşür. Dünyaya gələn uşağı milli ruhda böyütmək, cəmiyyətə layiqli vətəndaş hazırlamaq baxımından qadınların üzərinə düşən məsuliyyət daha böyükdür. Bu gün Azərbaycan qadını öz ağlı, biliyi, istedadı, milli-mənəvi keyfiyyətləri ilə fərqlənir. Əminəm ki, qadınlarımız onlara məxsus olan bu keyfiyyətləri hər zaman qoruyacaqlar".



**Səkinə Babayeva, Bakı Tekstil Fabrikinin direktoru:** "Tarix boyu Azərbaycan qadınları ictimai-siyasi proseslərdə fəallıqları ilə seçiliblər. Onların arasından görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimlər yetişib. Respublikamız müstəqillik qazandıqdan sonra qadınların cəmiyyətdəki rolu daha da yüksəldi və fəaliyyətləri üçün geniş imkanlar yaradıldı. Ümummilli liderimiz Heydər Əliyev qadınların cəmiyyətdəki rolu ilə bağlı siyasətin həyata keçirilməsinə, onların dövlət quruculuğunda, elm, mədəniyyət, təhsil, səhiyyə, idmanda və s. sahələrdə geniş təmsil olunmalarına xüsusi əhəmiyyət verirdi. Məhz bu siyasətin nəticəsidir ki, bu gün qadınlarımız təkcə respublikamızda deyil, ölkə hüdudlarından kənarda da tanınır, beynəlxalq qurumlarda Azərbaycanı ləyaqətlə təmsil edirlər".



**Xatirə Xəlilova, 25 saylı şəhər poliklinikasının baş həkimi:** "Dövlət quruculuğunda qadınların rolu, ehtirama layiq mövqeyi bu gün müstəqillik ideyası ətrafında sıx birləşən xalqımız və cəmiyyətimiz tərəfindən yüksək qiymətləndirilir. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı nailiyyətlər Azərbaycan qadınının çox böyük potensiala malik olduğunu zaman-zaman təsdiq etmişdir. Azərbaycanda qadına – anaya daim böyük ehtiram və hörmət bəslənmiş, ana həmişə müqəddəs olmuş, namus, qeyrət rəmzi sayılmışdır. Müdrik hökmdar, cəsur sərkərdə, istedadlı şair və sənətkar qadınlarımızın adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılmışdır. Bu gün respublikada qadınların təhsil, məşğulluq, sahibkarlıq fəaliyyəti, rəhbər vəzifələrdə təmsil olunma səviyyəsi yüksələn xətt üzrə inkişaf edir. Zaman keçdikcə Azərbaycan cəmiyyətində qadının rolu daha da artır, o, ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrilir, ölkənin taleyüklü məsələlərində mühüm rol oynayır".



**Tahirə Fərzəliyeva, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar Komitəsinin Binəqədi rayon şöbəsinin sədri:** "Qadınların cəmiyyətdəki rolu danılmazdır. Bu gün Azərbaycan qadını öz dövlətinin mənafeyi, inkişafı naminə əlindən gələni əsirgəmir. Ülvilik, zəriflik və gözəllik rəmzi olan qadın adı, ana adı həmişə uca tutulub. Azərbaycan qadını bütün dövrlərdə öz istedadı, zəkası, iradəsi və əzmi ilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Tariximizin və mədəniyyətimizin neçə-neçə şanlı, parlaq səhifəsi məhz onun adı ilə bağlı olub. Bu gün də belədir. Azərbaycan qadını dünyaya bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər bəxş etmişdir. Xalqımızın təfəkküründə ana məfhumu doğma yurdun, Vətən torpağının təcəssümüdür. Ötən əsrdə qadın hüquqlarının qazanılması və qorunması yolunda misilsiz uğurlar əldə etmiş Azərbaycan qadını bu gün artıq ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatının fəal iştirakçısıdır. O, taleyüklü milli məsələlərin həllinə sanballı töhfələr verir".



**Xatirə Xudiyeva, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi:** "Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Dünya mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın əvəzsiz rolu var. Azərbaycanın qazandığı bütün böyük uğurlarda qadınlarımızın misilsiz xidmətləri var. Respublikamızda aparılan quruculuq işlərində xanımlarımız yaxından iştirak edir, bütün sahələrdə Vətənimizin yüksəlişinin təmin olunmasında öz töhfələrini əsirgəmirlər. Qadınlarımız mədəni-mənəvi zənginliklərin yaşadılması üçün çalışır, gənc nəslin qədim ənənələrə, dövlətçilik ideallarına sədaqət ruhunda tərbiyəsinə xüsusi diqqət yetirirlər. Qadın zərif olsa da zəif deyil. Ən azı, Azərbaycan qadınlarının timsalında biz bunu görürük. Qadınlarımız öz zəkası, nüfuzu və müdrikliyi ilə Vətənimizin tarixində silinməz iz qoyublar".

# İncə və lirik səsin sehrində...



Binəqədi rayonunda istedadlı və bacarıqlı gənclər yetərincədir. İslamə Abdullayeva da məhz onlardan biridir. 35 nömrəli musiqi məktəbinin 11-ci sinif şagirdi İslamə musiqi sahəsinə uşaq yaşlarından maraq göstərib. Niyazi adına 22 saylı musiqi məktəbini bitirən gənc xanımın ilk vokal müəllimi Tamilla Səlimova olub. İlk gündən öz istedadı ilə həmyaşıdlarından fərqlənən İslamə indiyədək ayrı-ayrı müsabiqələrdə öz istedadını yüksək səviyyədə nümayiş etdirib.

Bu günlərdə "Alman-Azərbaycan" mədəniyyət cəmiyyətinin təşkilatçılığı ilə "Kapelhaus"da İslamə Abdullayevanın solo konserti keçirilib. Binəqədili gənc məşhur ariyalar, romanslar və duetləri müəllimi, tanınmış azərbaycanlı vokalçı, "Üns" yaradıcı səhnəsinin solisti, Azərbaycan Dövlət Opera və Balet Teatrının və Azərbaycan Dövlət xor kapellasının artisti İlham Nəzərovla birgə oxuyub. Musiqi gecəsində tanınmış mədəniyyət və incəsənət xadimləri ilə yanaşı, rayon ictimaiyyətinin nümayəndələri də iştirak ediblər. Gənc musiqiçi əvvəlcə ingilis barokko bəstəkarı Henri Perselin "Didona və Eney" operasından "When I am laid in earth" ariyasını ifa edib. Öz işinin öhdəsindən bacarıqla gələn istedadlı vokalçı sonra müəllimi ilə birlikdə italyan bəstəkarı Karissiminin "Partenza dalla sua Donna" mahnısını oxuyub. Konsertdə ingilis, italyan, rus və alman dillərində zövq oxşayan musiqilər səsləndirilib. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası və "Sevgili canan" romansı İslamə Abdullayevanın ifasında olduqca səmimi və gözəl alınıb. İstedadlı gənc qızın incə və lirik səsi musiqisevərlərin gurultulu alqışları ilə qarşılanıb.

Konsert başa çatdıqdan sonra İlham müəllimlə söhbət etdik. Müəllimi tələbəsinin qabiliyyətindən ağızdolusu danışdı: "İslamə artıq 2 ildir ki, mənim sinfimdə təhsil alır. O, elə ilk gündən estrada və caz əsərlərini çox gözəl ifa edirdi. Bu gün isə artıq klassik kamera və vokal ifaçısıdır. Bu konsertdə tələbəm 5 dildə – Azərbaycan, rus, fransız, italyan və alman dillərində əsərləri peşəkarcasına ifa etdi. O, öz seçiminə çox ciddi yanaşır. Bilmədiyi dillərdə oxuduğu əsərlərdəki hər sözün mənasını öyrənməyə çalışır. 16 yaşlı məktəbli bir qız üçün kifayət qədər mürəkkəb repertuarlar seçir. Bu əsərləri magistratura pilləsində təhsil alan vokalçı səviyyəsində ifa edə bilir. İslamənin böyük potensialı var. Bugünkü konsertdə də bir daha əmin oldum ki, o, öz seçimində yanılmayıb. Yaşının azlığına baxmayaraq, pedaqoqun ondan nə istədiyini çox gözəl başa düşür, musiqini dərindən hiss edir, bu isə çox vacibdir! İslamə zəhmətkeşdir, işləyəndir və perspektivlidir. Mən öz tələbəmlə qürur duyuram. İnanıram ki, İslamə ali təhsil aldıqdan sonra Avropada tanınmış ifaçıya çevriləcək".

Çıxışı ilə bağlı İslamənin də fikirlərini öyrəndik: "Musiqi mənim həyat tərzimdir. Bu sahə məni uşaq yaşlarımdan özünə çəkib. Musiqi ilə məşğul olmağım dərslərimə mane olmur. Bütün işlərimi planlı şəkildə həyata keçirirəm. Bu konsertə çox ciddi hazırlaşmışdım. Məşqlərdə İlham müəllimin böyük zəhməti olub. Ümumiyyətlə, o, məsuliyyətli və əməksevər insandır. Çalışıram ki, müəllimimin verdiyi bütün tapşırıqları düzgün və vaxtında yerinə yetirim. İndi daha çox klassik musiqiyə maraq göstərirəm. Musiqi əsərləri üzərində daha çox həvəslə çalışıram. Çox istərdim ki, təhsilimi İtaliyada davam etdirim".

Qeyd edək ki, gənc vokalçı Azərbaycan İncəsənət Muzeyinin yaradılmasının 80 illiyi münasibətilə "Borokko dövrünün musiqisi" adı altında keçirilən konsertdə də maraqlı proqramla çıxış edib.

# "ASAN könüllüləri" voleybol birinciliyində



Binəqədi Rayon Gənclər və İdman İdarəsi, "ASAN Könüllüləri" Təşkilatı və "Azərreyl" voleybol klubunun birgə təşkilatçılığı ilə "ASAN xidmət" mərkəzlərinin könüllü xanım gəncləri arasında yarış keçirilib. Birincilikdə ümumilikdə 6 komanda iştirak edib. Yarışın nəticəsinə görə, 5 saylı Bakı "ASAN xidmət" mərkəzi fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Sumqayıt "ASAN xidmət" mərkəzi 2-ci, 1 saylı Bakı "ASAN xidmət" mərkəzi isə 3-cü yerlə kifayətlənib.

Yarışın bağlanış mərasimində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparat rəhbəri Azad Cəfərli, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Agentliyin İnsan resursları və təlim şöbəsinin müdir müavini Cahangir Hacıyev, Sumqayıt və Bakı "ASAN xidmət" mərkəzlərinin direktorları, "Azərreyl" voleybol klubunun vitse-prezidenti Vəsilə Abulova, "ASAN Könüllüləri" Gənclər Təşkilatı İctimai Birliyinin sədri Fərid Sadıxlı və könüllü gənclər iştirak ediblər. Qalib komandalar diplom, medal və kubokla mükafatlandırılıblar.

# "Turizm foto müsabiqəsi" layihəsinin təqdimatı



5 saylı Bakı "ASAN xidmət" mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun VII qrant müsabiqəsinin qalibi, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının iqtisadiyyat fakültəsinin tələbəsi Rübabə Eyvazovanın "Turizm foto müsabiqəsi" layihəsinin açılış mərasimi keçirilib. Tədbirdə "ASAN Könüllüləri" Təşkilatı Könüllülərlə iş departamentinin müfəttişi Fidan Alıyeva, sözügedən təhsil müəssisəsinin Tələbə Gənclər Təşkilatının sədri Anar Əliyev, "ASAN Könüllüləri" Təşkilatının üzvləri, gənclər iştirak ediblər.

Layihə rəhbəri R.Eyvazova müsabiqənin keçirilməsi qaydaları haqqında tədbir iştirakçılarına məlumat verib. Layihənin həyata keçirilməsində ona dəstək olan qurumlara və müsabiqədə iştirak edən gənclərə təşəkkürünü bildirib. Sonra iştirakçılar fotoşəkillərdən ibarət sərgi ilə tanış olublar. Müsabiqəyə təqdim olunan 65 fotoşəkildən 25-i seçilərək nümayiş etdirilib.

# Xalqlar arasında münasibətlər möhkəmləndirilir

Ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycanda yaşayan bir çox xalqların nümayəndələrinin təşəbbüsü ilə "Sodrujestvo" Azərbaycan Xalqlarının Könüllü Həmrəylik İctimai Birliyi (AXKHİB) yaradılıb. Birliyin təşkilatçıları arasında azərbaycanlılarla yanaşı, ruslar, ukraynalılar, ləzgilər, tatarlar və digər xalqların nümayəndələri yer alıblar. Hazırda birliyin 6 minə yaxın üzvü var.



AXKHİB respublikanın bir sıra ictimai təşkilatları ilə əməkdaşlıq və tərəfdaşlıq barədə ikitərəfli müqavilələr həyata keçirir. Təşkilatın qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsində qurumun şəhər və rayon təşkilatları böyük dəstək göstərirlər. Birliyin Binəqədi rayon şöbəsi 1999-cu ildə təsis edilib. Təşkilatın fəaliyyəti ilə yaxından tanış olmaq üçün bu günlərdə cəmiyyətin sədri Elmira Bayquzina ilə görüşüb söhbət etdik. Onun sözlərinə görə, cəmiyyətin yaradılmasında əsas məqsəd ölkədə gedən demokratik proseslərdə yaxından iştirak etməkdir: "Əsas məqsədi Azərbaycanda yaşayan ayrı-ayrı millət və etnik qrupların, xalqların və azlıqların dilinin, adət və mədəniyyətlərinin qorunub saxlanması və inkişafına köməklik göstərmək olan "Sodrujestvo" AXKHİB-in Binəqədi rayon şöbəsi yarandığı gündən indiyə qədər uğurlu fəaliyyət proqramı nümayiş etdirib. Biz, ənənələrə sadiq qalaraq, milliyyətindən və dini etiqadından asılı olmayaraq, xalqlar arasında dostluq və mehriban münasibətlərin möhkəmləndirilməsi, xaricdəki həmvətənlərlə daha sıx əlaqələrin qurulması istiqamətində daha böyük işlər görmək niyyətindəyik. Rayonda fəaliyyət göstərən digər təşkilat və cəmiyyətlərlə birgə əməkdaşlıq edirik. Şöbə tərəfindən Binəqədi rayonunda yaşayan müharibə veteranları, tənha və kimsəsiz şəxslərin evlərinə ziyarət təşkil edir, zərurət olduqda isə evdə tibbi xidmət təşkil edir, internat məktəbləri, kimsəsiz uşaqlar və əlillər üçün əşya toplanmasını təşkil edirik. Bu işdə bizə rayon icra hakimiyyəti tərəfindən yaxından köməklik göstərilir".

Birlik tərəfindən bayramlarda mərasimlərin təşkil olunduğunu söyləyən Elmira xanım tədbir iştirakçılarına ərzaq və hədiyyələr verildiyini dedi: "Cəmiyyət üzvlərinin teatr, konsert, sərgi və digər tədbirlərdə kollektiv şəkildə iştirakı təmin olunur, yay aylarında isə ölkənin tarixi yerlərinə ekskursiyalar təşkil edilir. Təşkilatımızın fəal üzvləri mütəmadi olaraq Azərbaycan və Rusiyanın gəzməli-görməli yerlərində olurlar".

E.Bayquzina bildirdi ki, cəmiyyət tərəfindən yaradılan "Poeziya klubu"nda rus dilində yazan peşəkar və həvəskar şairlər birləşib. Klubun üzvləri mütəmadi olaraq məktəblərə, universitetlərə, təşkilatlara gedərək poeziya həvəskarları ilə görüşlər keçirirlər. Onların əsərləri yerli mətbuatın səhifələrində mütəmadi qaydada dərc olunur: "Şöbənin təşkilatçılığı ilə Azərbaycan və Rusiyanın məşhur yazıçı və şairlərinə həsr olunmuş tədbirlər keçirilir. Böyük Vətən müharibəsi iştirakçıları arasında "Qafqaz uğrunda döyüş" adlı "dəyirmi masa" təşkil edilib. Görkəmli rus şairi A.S.Puşkinin xatirəsinə həsr olunmuş müsabiqələrdə fəal iştirak edənlər mükafatlandırılıblar. Hər il iyun ayının 6-da biz şairin abidəsini ziyarət edirik və önünə gül-çiçək düzürük".

Şöbəyə üzv olan vətəndaşlara pulsuz hüquqi məsləhətlər verildiyini, məhkəmə, inzibati və sair instansiyalarda onların maraqlarının ictimai müdafiəsinin təşkilinə yardım edildiyini deyən Elmira xanım səhhətində problemi olan imtiyazlı şəxslərin Bilgəh, Mərdəkan və Şıxovda müalicə olunduqlarını da diqqətə çatdırdı: "Biz qadınların problemləri ilə ciddi maraqlanırıq. Çoxuşaqlı analara, gənc ailələrə, xüsusi diqqət göstərir, qadınların asudə vaxtının təşkilində iştirak edir, mədəni-maarif işini, hüquqi yardımı həyata keçiririk. Bundan başqa, respublikanın digər gənclər təşkilatlarının nümayəndələri ilə görüşlər, "dəyirmi masa"lar zamanı müxtəlif mövzuların müzakirəsi təşkil olunur. Şöbə Binəqədi rayonunun ictimai-siyasi həyatında da fəal iştirak edir. Ulu öndər Heydər Əliyevin və görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş tədbirlər keçiririk".

Əlavə edək ki, bu günlərdə Elmira Bayquzinanın Novruz bayramı münasibətilə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısına ünvanladığı təbrik məktubunda rayonda hökm sürən tolerantlığa görə təşəkkürünü bildirib.

## İstedadlar üzə çıxarılır

Martın 2-də Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi, Uşaq və Yeniyetmələrə Dəstək İctimai Birliyi, Binəqədi Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə "Həvəskardan peşəkara doğru" adlı layihə çərçivəsində növbəti təlim həyata keçirilib. Layihənin məqsədi uşaq, yeniyetmə və gənclər arasında vətənpərvərlik hisslərinin formalaşdırılmasından və həvəskar rejissor operatorları stumullaşdıraraq gənc istedadların üzə çıxarılmasından ibarətdir.

Tədbirdə təlimçi kimi çıxış edən Azərbaycan Respublikasının xalq artisti, tanınmış teatr, kino və televiziya rejissoru Ramiz Mirzəyev rejissor və operator sahəsinin incəliklərindən danışıb. Təlim gənclərin sualları ətrafında diskussiya şəklində davam etdirilib.

## Fövqəladə Hallar Nazirliyi xəbərdarlıq edir

# Novruz Bayramı şənliklərində yanğın təhlükəsizliyi tədbirləri

**Yurdumuza bahar gəlir – həmişə sevinclə, səbirsizliklə gözlədiyimiz bahar. Xalqımıza həmişə olduğu kimi, milli adət-ənənələrimizə uyğun olaraq baharın gəlişini-Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılayır. İqtisadiyyatının gündən-günə inkişaf etdiyi müstəqil Azərbaycan Respublikasının bütün şəhər və kəndləri bu gün bir-birindən rəngarəng bayram tədbirləri ilə Novruzu qeyd etməyə hazırlaşır.**

**Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramları, o cümlədən Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tədbirlərə ciddi əməl olunmalıdır.**



### Novruz Bayramı ilə əlaqədar keçirilən şənliklərdə

– Əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına əməl olunmalıdır.

– Tonqallar ətrafında olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, ot tayalarından, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.

– Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğın üçün mənbə ola bilər.

– Şənliklərdə atəşfəşanlıq məqsədilə pirotexniki vasitələrdən, həmçinin yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edlməsi qadağandır!

### UNUTMAYIN Kİ...

Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticəsində də ciddi yanğınlar baş verə bilər. Belə ki, məşəllər evlərin dam örtüklərini və ya həyətyanı sahələrə yığılmış yanar materialları, çəpərləri, ot tayalarını alışdıra bilər.

### NOVRUZ BAYRAMI ŞƏNLİKLƏRİNDƏ UŞAQLARI NƏZARƏTSİZ QOYMAYIN!

– Bahar bayramı şənliklərinfə azyaşlıların, uşaqların odla dəcəllik etməsinə yol verilməməlidir.

– Uşaqlar adət-ənənələrimizlə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdırlar.

### ŞAM YANDIRARKƏN

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və s. yerlərə yapışdırmaq olmaz.

Bayram tədbirləri zamanı müəssisə və təşkilatların, təhsil ocaqlarının, xüsusən də internat tipli və s. məktəblərin rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməlidirlər.

Milli bayramımızı – Novruzu xoş duyğularlan başa vurmaq üçün yuxarıda sadalanan, həmçinin yanğın təhlükəsizliyi ilə bağlı digər qaydalara əməl etmək vacibdir.

### Novruz bayramı ilə əlaqədar yanğın təhlükəsizliyi qaydalarını bilmək vacibdir:

– bayram tonqalının ətrafına yığışan azyaşlılar mütləq böyüklərin nəzarətində olmalıdır;

– tonqal yanar materiallar, o cümlədən qaz və neft borusu, elektrik xətti və dirəyi, ağac, kol-kos, avtomobil, ev, eləcə də tezalışan maddələrdən kənarda yandırılmalıdır;

– tonqal tam sönənədək nəzarətdə saxlanılmalıdır. Çünki zəif meh nəticəsində belə tonqalın közü yanğına səbəb ola bilər;

Tonqal üzərindən atılarkən ehtiyatsızlıq geyimin alışmasına, bədənin xəsarət almasına səbəb ola bilər;

– bayramda yandırılan şamları nəzarətsiz qoymaq, yanar təhlükəli materialların (pərdə, kağız, xalça və s.) yaxınlığında yerləşdirmək, şamı öz ərintisi ilə masa, kibrit qutusu və digər tezalışan yerlərə yapışdırmaq olmaz;

– qapalı məkanda atəşfəşanlıq etmək qadağandır!

# Şagird-müəllim münasibətləri sivil formada həll olunmalıdır

Son dövrlər uşaqlar arasında pis vərdişlərə meyilliliyin müşahidə olunması ciddi narahatlıq doğurur. Xüsusən valideyn nəzarətindən kənarda qalan belə uşaqlar məktəbdən yayınır, əsas vaxtını daha çox internet klublarında keçirirlər. Əslində, Azərbaycan dövləti uşaq, yeniyetmə və gənclərin sağlam həyat tərzinin formalaşması, gənclərin pis vərdişlərdən uzaqlaşdırılması üçün kifayət qədər mütərəqqi addımlar atır. Təsadüfi deyil ki, hazırda ölkəmizdə yetərincə idman ocaqları, idman klubları fəaliyyət göstərir. Dövlətin vəsaiti hesabına yaradılan bu cür obyektlər heç də təsadüfən inşa olunmur. Azərbaycan dövlətinin idmana göstərdiyi diqqət və qayğı gənclərin sağlam həyat tərzi keçirməsi üçündür. Dövlətimiz səy göstərir ki, uşaqlar pis yola, zərərli vərdişlərə aludə olmasınlar.

Sözsüz ki, uşaqların pis vərdişlərdən uzaqlaşdırılması istiqamətində orta ümumtəhsil məktəblərində də lazımi işlər həyata keçirilir. Məlum məsələdir ki, məktəb şagirdlərinin günün əsas vaxtında müəllimlərinin yanında olması uşaqların mənəvi tərbiyəsində xüsusi rol oynayır. Müəllimlər, tanınmış ziyalılar uşaq və gənclərin pis vərdişlərdən uzaqlaşdırılması üçün müəyyən təkliflər irəli sürür, məsələnin həqiqətən çox ciddi olduğunu bildirirlər.



Söhbət etdiyimiz 297 saylı məktəbin direktoru Fazil Məmmədov müəllim-şagird münasibətlərinə, uşaqların pis vərdişlərdən uzaqlaşdırılmasına, gənc nəslin sağlam həyat tərzinin formalaşmasına münasibətini bildirdi: "Dövlətimiz Azərbaycan vətəndaşlarının yüksək səviyyədə təhsil almasına, təlim-tərbiyəsinə xüsusi diqqətlə yanaşır. Hamımız şahidik ki, hazırda ölkədə inşa olunan müasir tələblərə cavab verən məktəblər Azərbaycanın gənc vətəndaşlarının təhsilində, mənəvi və vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Sözsüz ki, yeniyetmələrin pis vərdişlərdən qorunması təhsil müəssisələrinin əsas vəzifələrindəndir. Bütün məktəblərdə şagirdlər həm dərs zamanı, həm də dərsdən sonra pedaqoji kollektivin nəzarəti altında olmalıdır. Bu, çox vacibdir. Çünki nəzarətsiz qalan uşaq pis yola düşür, zərərli vərdişlərdən qaça bilmir, tərbiyəsi və əxlaqı pozulur. Son vaxtlar müşahidə edirik ki, şagirdlərin bir çoxu boş vaxtlarını internet klublarında keçirirlər. Bu, onların dərsə davamiyyətinə də ciddi təsir edir. Mən demirəm ki, internet klublarına getmək, burada müxtəlif oyunlar oynamaq düzgün deyil, sadəcə, bunun vərdiş halına keçməsi ciddi narahatlıq doğurur. Yəni dərsdən yayınmaqla internet klublarında saatlarla vaxt keçirmək çox xoşagəlməz haldır. Bu baxımdan, müəllimlər şagirdlərin dərsə davamiyyətini, nizam-intizam qaydalarına necə riayət etməsini vacib məsələ kimi nəzarətdə saxlamalıdırlar. Biz öz fəaliyyətimiz çərçivəsində belə neqativ hallara xüsusi diqqətlə yanaşırıq. Məktəbimizin yerləşdiyi ərazidə də internet klubları olduğu üçün biz hüquq-mühafizə orqanları ilə sıx işləyirik, reydlər aparırıq ki, şagirdlərimiz bu sahəyə aludə olmasınlar".

Doğrudan da bu gün bəzi sagirdlərin nizam-intizam qaydalarına biganə yanaşması müşahidə olunur. Belə hallar gənclərin tərbiyəsinə, o cümlədən psixoloji vəziyyətinə təsirsiz ötüşmür. İnternet klubları kimi yerlərdə vaxt keçirən uşaqlar pis təsirlər altına tez düşə bilirlər. Buna görə də məktəb-şagird münasibəti diqqətdən kənarda qalmamalı, təhsil müəssisələri yeniyetmələrin davranışına xüsusi həssaslıqla yanaşmalıdır. Fazil müəllimin sözlərinə görə, dərsə davamiyyətdə nöqsanların baş verməsi şagirdlərin repetitorlara üz tutması ilə də sıx bağlıdır: "Mən repetitorluğun əleyhinə deyiləm. İstənilən şagird başqa müəllim yanına gedə və biliklərini möhkəmləndirə bilər. Lakin nəzərə alınmalıdır ki, təhsilin, belə demək mümkünsə, onurğa sütunu ümumtəhsil məktəbləridir. Şagird dərsə müntəzəm gəlməklə müəllimin izah etdiklərini daha dərindən qavramaqla yüksək biliyə malik ola bilər. Bu, danılmaz faktdır. Azərbaycan təhsili bu gün özünün inkişaf dövrünü yaşayır. Orta ixtisas məktəblərində təhsilin yüksək formada təşkili üçün hər cür şərait mövcuddur. Məktəblərimiz ən müasir avadanlıqlarla təchiz olunub. Müəllimlərimiz də kifayət qədər savadlı və öz məsuliyyətini dərk edən peşəkar mütəxəssislərdir. Yəni belə bir şəraitdə təhsil almaq, bilik səviyyəsini yüksəltmək çox asandır. Sadəcə, şagird dərsə davamlı gəlməli, müəllimin verdiyi tapşırıqları vaxtında yerinə yetirməlidir. Heç bir pedaqoq dərs dediyi şagirdin savadsız böyüməsinə, onun pis yola düşməsinə razı ola bilməz. Şagird də öz davranışı ilə fərqlənməli, ona savad verən müəllimə hörmətlə yanaşmalıdır".

Son vaxtlar televiziya kanallarında, saytlarda bəzi məktəblərdə baş verən neqativ hallar barədə geniş şəkildə məlumat verilir. Orta ixtisas məktəblərində təsadüfən qeydə alınan belə halların ictimailəşdirilməsi, əslində, yolverilməzdir. Çünki belə hallar məktəb-valideyn, müəllim-şagird-valideyn münasibətlərində mənfi çalarlara yol açır. Təcrübəli pedaqoq Fazil Məmmədov bizimlə söhbətində bu məsələyə də münasibətini bildirdi: "Mən bayaq da qeyd etdim ki, şagird öz müəlliminə hörmətlə yanaşmalıdır. Axı, hər bir şagirdin əlindən tutan, ona ana, Vətən kimi müqəddəs kəlmələri öyrədən məhz müəllimlərimizdir. Müəllim də insandır və onun da müəyyən problemləri, sıxıntıları ola bilər. Belə hallarda şagird və müəllim müasibətlərinin pozulmasına gətirib çıxara biləcək hərəkətlər qarşılıqlı münasibətlər əasasında çözülməlidir. Təəssüf ki, son vaxtlar müəllim-şagird münasibəti müstəvisində baş verən neqativ hallar ictimailəşdirilir. Bu, düzgün deyil, çünki təsadüfən baş verən belə halların səs-küyə səbəb olması, istər-istəməz, bütün tərəflərin münasibətinə əks-təsir göstərir. Əgər hansısa müəllim hirslənərək şagirdi vurubsa, bu məsələ məktəbin pedaqoji şurasında araşdırıla, təhlil edilə və bununla bağlı qanunlar çərçivəsində müəyyən qərarlar qəbul oluna bilər. Dediyim odur ki, adi bir məsələni ictimaiyyətin geniş müzakirəsinə çıxarmaq həmin hadisənin baş verdiyi məktəbin nüfuzuna xələl gətirir. Bir daha vurğulamaq istəyirəm ki, hər bir müəllim dərs dediyi şagirdin əxlaqına, tərbiyəsinə, savadına cavabdehlik daşıyır və müəllimlərimiz bu məsuliyyəti dərindən dərk edirlər. Qarşılıqlı münasibətlər isə, təbii ki, sivil qaydada öz həllini tapmalıdır".

## Məktəblilər futbol ...



115 №li tam orta məktəbin stadionunda rayon orta ümumtəhsil müəssisələrinin 8-9-cu sinif şagirdləri arasında Novruz bayramı münasibəti ilə “Novruz-2016” futbol birinciliyi keçirilib. Yarışın yekun nəticəsinə əsasən, 244 saylı məktəbin komandası I yeri tutub. 83, 115 №li təhsil müəssisəsinin komandası isə müvafiq olaraq II-III yeri bölüşdürüb. Birincilikdə fərqlənən komandalar Binəqədi rayon Gənclər və İdman İdarəsi tərəfindən kubok və medallarla mükafatlandırılıblar.

## ...və şahmat birinciliyində



276 № li tam orta məktəbdə Binəqədi rayon orta ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat üzrə rayon birinciliyi keçirilib. Yarışda hər birində 6 nəfər (4 oğlan, 2 qız) olmaqla 26 məktəb komandası iştirak edib. Yarışın nəticəsinə əsasən, 246№ li məktəb-liseyin komandası fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. 276 № li məktəbin komandası II, 144№ li məktəbin komandası isə III olub. Birincilikdə fərqlənənlər rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom və medalla təltif olunublar.

## Fənn olimpiadasının qalibləri mükafatlandırılıb





Xəzər Universitetinin Dünya məktəbində “Təhsil ağılın simasıdır” mövzusunda riyaziyyat fənni üzrə olimpiadanın qalibləri müəyyən edilib. Tədbirə Millət vəkilləri Azay Quliyev və Elman Nəsirov, kimya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru Vaqif Abbasov, Dünya məktəbinin təsisçisi Hamlet İsaxanlı, Binəqədi Rayon İcra Hakimiyyətinin məsul işçisi Elnur Məmmədov və digər qonaqlar qatılıblar. Qaliblərə hədiyyə və sertifikatlar təqdim olunub.

Olimpiadada paytaxt məktəblərinin 6-7-ci sinif şagirdləri iştirak ediblər.

Tədbirin təşkil olunmasında əsas məqsəd riyazi məntiqi güclü olan şagirdlərin aşkar edilməsi, onların fənn olimpiadalarına psixoloji cəhətdən hazırlığı, öz bilik və bacarıqlarına inam hissini gücləndirmək olub.

## Kitabxanada Novruz bayramı qeyd olunub

Xalqımızın ən əziz bayramlarından olan Novruz bayramı Binəqədi rayon Mərkəzləşdrilmiş Kitabxana Sisteminin (MKS) 1 saylı kitabxana-filialında tədbir təşkil olunub. Tədbirdə kitabxana-filialın kollektivi ilə yanaşı, oxucular da iştirak ediblər.



Bayram şənliyini giriş sözü ilə açan 1 saylı kitabxana-filialın müdiri Almaz Ələkbərova Novruz bayramının keçirilmə tarixi barəsində ətraflı məlumat verib: “Novruz bayramının ölkəmizdə dövlət səviyyəsində qeyd olunması ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Novruzu həm də milli birlik bayramı kimi adlandırıb. Azərbaycan Prezidenti İlham Əliyev milli dəyərlərimizə son dərəcə diqqətlə yanaşır, mədəniyyətimizin inkişafına xidmət edən lazımi tədbirlər həyata keçirir. Bu gün qürur hissi keçiririk ki, ulu öndərimizin böyük səyləri ilə rəsmi dövlət bayramı artıq dünyada tanınır. 2009-cu ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin yekun qərarına əsasən, Novruz bayramının qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi buna əyani sübutdur. BMT tərəfindən isə 21 mart “Beynəlxalq Novruz Günü” elan olunub”.

“Bahar” qızının gəlişi bayramı daha da şənləndirib. Kosa isə öz xurcununu bayram payı ilə doldurub. Sonra uşaqlar bayatılar, şeirlər söyləyib, mahnı oxuyub, rəqs edib və tonqalın üstündən hoppanıblar. Tədbirin sonunda iştirakçılar bayram sərgisi ilə də tanış olublar.

## Kredit ödənişində çətinliyi olan müştərilərə güzəştlər başladı

Kredit ödənişində çətinliyi olan müştərilərə güzəştlər başladı”FINCA Azerbaijan” Qeyri-Bank Kredit Təşkilatı hazırkı iqtisadi şəraitdə kredit ödənişlərində çətinlik çəkən müştərilərinə fərdi yanaşaraq onlara daha rahat ödəniş imkanları təklif edir.

Təşkilatdan verilən məlumata görə, yeni imkanlar çərçivəsində müştərinin istəyinə uyğun olaraq hər iki valyutada olan kreditlərin ödəniş müddətini uzatmaq, dollar kreditlərini manata konvertasiya etmək, gözləmə muddəti və illik faiz endirimləri vermək və fərdi ehtiyaclara uyğun digər guzəştlər etməyi nəzərdə tutulur.

## Gecə və gündüz necə əmələ gəlir?

Dünyamız və digər bütün planetlər öz oxu ətrafında fırlanırlar. Dünyamızın öz oxu ətrafında fırlanması nəticəsində gecə və gündüzün əmələ gəlməsi ilə yerli saat fərqi ilə yanaşı, bir çox hadisə meydana gəlir.

Dünyanın gündəlik hərəkətinin nəticələri:

Gecə və gündüzün meydana gəlməsi.

Gecə və gündüzlərin bir-birini izləməsi.

Yerin gün ərzində günəş şüalarını qəbul etmə bucağının dəyişməsi.

Gecə və gündüzlərin əmələ gəlməsinin nəticəsində gündəlik temperatur fərqlərinin ortaya çıxması.

Gündəlik temperatur fərqindən asılı olaraq mexaniki təsirin artması; küləklərin əmələ gəlməsi.

Atmosferdəki hava axınlarının cəbhə əmələ gətirməsi. 300 - 600 şimal və cənub paralellərində dinamik təzyiq mərkəzlərinin ortaya çıxması.

Okean axıntılarının halqalar əmələ gətirməsi və cərəyanlar yaratması.

Eyni paralel üzərində yerləşən şəhərlərdə günəşin çıxması və batması saatlarının fərqli olması.

Yerli saat fərqlərinin meydana gəlməsi.

Dünyanın illik hərəkəti və nəticələri

Orbitin Hərəkəti: Dünyanın günəş ətrafında fırlanarkən izlədiyi yola orbit, meydana gətirdiyi müstəviyə də orbit müstəvisi deyilir. Dünyamızın orbiti şəkildən də göründüyü kimi, ellips formasındadır. Dünyanın bu cür hərəkət etməsi orbit hərəkəti və ya illik hərəkət adlanır.



Yer oxunun əyriliyi və nəticələri:

Ekvator ilə Orbit müstəvisi arasında 230°27’-lik bucaq mövcuddur. Dünya Günəş ətrafında orbit hərəkətini edərkən bu bucaq ilə fırlanır.

Günəş şüalarının düşmə bucağı il ərzində dəyişir. Günəş şüaları il ərzində tropiklərə bir dəfə, tropiklər arasına isə iki dəfə dik bucaq altında düşür. Tropiklərdən başqa heç bir yerə günəş şüaları dik olaraq düşmür. Ölkəmiz riyazi mövqeyi baxımından tropiklərdən kənarda yerləşir, buna görə də günəş şüaları dik bucaqla düşmür. 21 iyulda ən böyük bucaqla, 21 dekabrda isə ən kiçik bucaqla düşür.

Fəsillər əmələ gəlir. Dörd fəsilin əmələ gəldiyi qurşaq mülayim qurşaqdır. Səbəbi: günəş şüalarının düşmə bucağında il boyu dəyişikliyin çox olmasıdır. Tropik qurşaqda il boyu yay mövsümü, Qütb qurşağında isə il boyu qış mövsümü hakimdir.

Gecə-gündüz uzunluğu daim dəyişir. Bu dəyişiklik ən az Ekvatordadır. Qütblərə doğru getdikcə gecə gündüz dəyişikliyi artır.

Müqəddəs kitabımız Quranda bu hadisələr belə təsvir edilir:

“O, göyləri və yeri bir həqiqət kimi yaratmışdır. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür. O, Günəşi və Ayı ram etdi. Onların hər biri müəyyən olunmuş vaxtadək hərəkət edir. O, Qüdrətlidir, Bağışlayandır.(Zumər surəsi, 5)”

Ayədə gecə və gündüzün yaranması üçün dünyanın hərəkəti, “dairəvi bir cismi büküb örtmək” mənasını verən “təkvir” feilindən əmələ gəlib, “yukevviru” kəliməsi ilə təsvir edilir. Bu kəlmə dünyanın kürə formasında olması ilə birlikdə, Günəşin ətrafındakı hərəkətini də ifadə edir. Dünyanın kürə şəklinə və öz oxu ətrafında fırlanmasına görə, Günəş hər zaman dünyanın bir tərəfini işıqlandırarkən, digər tərəfi isə kölgədə qalır. Kölgədə qalan tərəf gecənin qaranlığı ilə örtülür və sonra dünyanın Günəşə doğru dönməsi ilə gündüz gecənin yerini tutur.

“Yasin” surəsində isə Günəşin və Ayın mövqeyi ilə bağlı belə bildirilir:

Günəş də özünün qaldığı yerə axıb gedir. Bu, Qüdrətli, Bilən (Allah’ın) əzəli hökmüdür. Ay üçün də mənzillər müəyyən etmişik. Nəhayət, o (tədricən) dönüb xurma ağacının qurumuş budağı kimi (əyri) olur. Nə günəş aya çatar, nə də gecə gündüzü keçə bilər. Onların hər biri (öz) orbiti (ilə) üzüb gedir. (Yasin surəsi, 38-40).


Binəqədi Rayon İcra Hakimiyyətinin
Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!
www.binegedi-ih.gov.az


**Binəqədi Rayon İcra Hakimiyyətinin kollektivi 83 saylı tam orta məktəbin direktoru Nəbi Mahmudova**

**ANASININ**

**vəfatı ilə başğı dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin.**

## Instagram Facebook kimi olacaq

Dünyanın ən məşhur şəbəkələrindən birində yeniliklər gözlənilir. Artıq Instagram xəbərləri xronoloji ardıcıllıqla yox, istifadəçinin zövqünə uyğun təqlim edəcək.

Instagram – xəbərlər lentinin formalaşması ilə bağlı əsl inqilaba hazırlaşır. Xidmətin rəsmi bloqunun məlumatına görə, hazırda məlumatlar xroniki ardıcıllıqla verilir. Gələcəkdə isə burada Facebook dakı qaydalar tətbiq olunacaq – yəni məlumatlar hər bir istifadəçinin şəxsi maraqlarına uyğun məlumatlar veriləcək.

İnstragam istifadəçilərinin davranışı şirkəti bu yeniliyi etməyə vadar edib. Belə ki, araşdırma göstərib ki, xəbər lentindəki xəbərlərin sayı çox olduğuna görə, istifadəçilər onların 70%-i baxmadan ötürürlər. Nəticədə istifadəçilər cəmi 10-dək xəbərlə tanış ola bilirlər, çünki sonadək gözləməyə səbrləri çatmır.




Xəbər lentinin dəyişməsi isə bu problemi aradan qaldıra biləcək. “Əgər sizin sevimli usiqiçiniz dünən axşamkı konsertindən video bölüşübsə, həmin xəbər sizin yuxudan ayılmağınızı gözləyəcək, fərqi yoxdur ki, siz neçə nəfəri izləyirsiniz və hansı vaxt zonasında yaşayırsınız. Əgər rəfiqəniz öz itinin şəklini bölüşürsə, onu da ötürməyəcəksiniz”-deyə şirkət yeniliyi izah edir.